# ELMİ TƏDQİQAT

Beynəlxalq Onlayn Elmi Jurnal

SCIENTIFIC RESEARCH

International Online Scientific Journal

aem.az

AEM

e-ISSN: 2789-6919

## ELM VƏ TƏHSİLDƏ MÜASİR TƏLƏBLƏR

### X TEZİSLƏR TOPLUSU

## MODERN REQUIREMENTS IN SCIENCE AND EDUCATION

### X THESES COLLECTION

# ELMİ TƏDQİQAT
**Beynəlxalq Onlayn Elmi Jurnal**
**İmpakt Faktor: 1.172**

# ELM VƏ TƏHSİLDƏ MÜASİR TƏLƏBLƏR

## X TEZİSLƏR TOPLUSU

DOI: https://doi.org/10.36719/2024/X

# SCIENTIFIC RESEARCH
**International Online Scientific Journal**
**Impact Factor: 1.172**

# MODERN REQUIREMENTS IN SCIENCE AND EDUCATION

## X THESES COLLECTION

**Bakı – Baku**
**2024**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

On 01.03.2021, the journal
was included in the register
of Press publications of the
Ministry of Justice of the
Azerbaijan Republic
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Metbuat Avenue, 529,
“Azerbaijan” Publish House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
tezis.tedqiqat@aem.az

## Beynəlxalq indekslər / International Indices

**e-ISSN: 2789-6910**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Redaktor

**Assoc. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
sevincsadigova@gmail.com

## Redaktor köməkçiləri

**PhD Almaz BƏDƏLOVA,** Azərbaycan Dillər Universiteti / Azərbaycan
doctorant@live.com

**Könül ABDULLAYEVA,** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
abdullazadehkonul75@gmail.com

**Şamxal ŞABİYEV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
shebiyev85@mail.ru

## Dillər üzrə redaktorlar

**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**PhD Türkan İSMAYILOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## ÜZVLƏR

**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA, Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Nataly MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof.Dr. Cavid QASIMOV,** Van Yüzüncü Yıl Üniversitesi / Türkiyə
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Elçin İBRAHİMOV,** Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Rafiq ÇOBANOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof.Dr. Əkbər AĞAYEV,** Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Faiq ŞAHBAZLI,** ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci / Azərbaycan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA,** Navoiy Dövlət Pedaqogika İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Elnurə ƏZİZOVA,** Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Həbib MİRZƏYEV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖEA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Assoc. Prof. Dr. İlkin ƏLİMURADOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Xalidə HƏSƏNOVA**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Cavadxan QASIMOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Allahverdi ŞƏRİFOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc HƏMZƏYEVA,** Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Amil ƏSGƏROV,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əlöysəd ƏSGƏROV,** Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Lalə QOCAYEVA,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aliyə RZAYEVA,** AR ETN, Təbii Ehtiyatlar İnstitutu / Azərbaycan
**Assoc.Prof. Dr. Əsəd QURBANLI,** AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu/ Azərbaycan
**Assoc. Prof. Dr. Toğrul XƏLİLOV**, AMEA Naxçıvan bölməsi / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**PhD Seymur MEŞAİK**, Gəncə Dövlət Universiteti / Azərbaycan

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Editor

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
sevincsadigova@gmail.com

## Assistant editors

**PhD Almaz BADALOVA,** Azerbaijan University of Languages / Azerbaijan
doctoral@live.com

**Konul ABDULLAYEVA,** Azerbaijan State Oil and Industry University / Azerbaijan
abdullazadehkonul75@gmail.com

**Shamkhal SHABIYEV**, Azerbaijan Science Center / Azerbaijan
shebiyev85@mail.ru

## Language editors

**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan
**PhD Turkan ISMAYILOVA**, Nakhchivan State University / Azerbaijan

## MEMBERS

**Prof. Dr. Gazanfar KAZIMOV**, ANAS, Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Haji HASANOV**, ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Javid GASIMOV,** Van Yuzuncu Yil University / Turkey
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Yaqut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof.Dr. Elchin IBRAHIMOV,** Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Rafiq CHOBANOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Nikolay BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Akbar AGAYEV,** Sumgait State University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA

**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Faig SHAHBAZLI,** Industrial and Technological college under ASOIU / Azerbaijan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA,** Navoi State Pedagogical İnstitute / Uzbekistan
**Assoc. Prof. Dr. Elnura AZIZOVA,** Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Habib MIRZAYEV,** Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Konul HASANOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the UAS / Uzbekistan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Ilkin ALIMURADOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Khalida HASANOVA**, Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Javadkhan GASIMOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Allahverdi SHARIFOV,** Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj HAMZAYEVA,** Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Amil ASKEROV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aloysad ASGAROV,** Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnara MEHBALIYEVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Lala GOJAYEVA,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aliya RZAYEVA,** Ministry of Science and Education of the Republic of Azerbaijan, Institute of Natural Resources / Azerbaijan
**Assoc. Prof. Dr. Asad GURBANLI,** ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Assoc. Prof. Dr. Toghrul KHALILOV**, Nakhchivan branch of ANAS / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine
**PhD Seymur MESHAIK,** Ganja State University / Azerbaijan

**Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 7-11**
**Modern Requirements in Science and Education X Theses Collection / 7-11**
**DOI: https://doi.org/10.36719/2024/X**

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Elnur Cəfərov**
Bakı Biznes Universiteti
magistrant
elnurceferov064@gmail.com

# HAVA YÜKDAŞIMALARININ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ RƏQABƏTİN ROLU

***Açar sözlər:*** *rəqabət, hava yükdaşımaları, inhisarçı rəqabət, oliqopolik rəqabət, qiymət rəqabəti*
***Keywords:*** *competition, air freight, monopolistic competition, oligopolistic competition, price competition, economic theory*

Son illər Azərbaycan Respublikasında müasir tələblərə cavab verən nəqliyyat infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən irimiqyaslı layihələr nəticəsində nəqliyyat sektoru milli iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilmişdir. Nəqliyyat sektoruna böyük məbləğdə investisiyalar qoyulmuş, hava limanları, körpülər, tunellər, yol qovşaqları tikilmiş, yeni avtomobil və dəmir yolları çəkilmişdir. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında qarşıya qoyulan əsas hədəflərdən biri müasir tələblərə, çağırışlara cavab verən innovativ nəqliyyat-logistika infrastrukturunun yaradılmasıdır. Bu istiqamətdə irimiqyaslı infrastruktur layihələrin reallaşdırılması nəticəsində nəqliyyat-logistika sektoru ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilmişdir.

DOI: https://doi.org/10.36719/2024/X

Milli iqtisadiyyatın inkişafının ən mühüm həlqələrindən biri Azərbaycanın güclü tranzit potensialının reallaşdırılması və Avrasiya əlaqələrinin təmin edilməsi üçün nəqliyyat sisteminin təkmilləşdirilməsidir. Nəqliyyat sektorunun həcminin artması və iqtisadiyyatın digər sahələrində multiplikator effekti nəticəsində o, ÜDM-in artmasına mühüm töhfə verə bilər. Bu, nəqliyyat xidmətlərinin göstərilməsində ən müasir texnologiyalardan istifadə etməklə əsas fondların səviyyəsinin əhəmiyyətli dərəcədə artırılmasını tələb edir. Bundan əlavə, aparıcı aviaşirkətlərin təcrübəsindən istifadə etməklə nəqliyyat vasitələrinin rəqabət qabiliyyətini artırmaq lazımdır.

Hava yükdaşımaları bazarı dinamik inkişaf edən yüksək texnologiyalı bazarlardan biridir. 2005-2022-ci illər ərzində Azərbaycan Respublikası üzrə yükdaşımaları əhəmiyyətli institusional dəyişikliklərə məruz qalmışdır. Yükdaşımaların ümumi həcmi 1,7 dəfə, o cümlədən hava nəqliyyatı ilə yükdaşımaları 6,5 dəfə artmışdır. Daşınan yüklərin strukturunda dəniz və dəmir yollarının payı azalmış, avtomobil, boru kəmərləri və hava nəqliyyatının payı artmışdır. Nəqliyyat sektorunda yükdaşımalarından əldə edilən gəlir 10,7 dəfə artmışdır. Yükdaşımalarından əldə edilən gəlirdə hava nəqliyyatı birinci yeri (43,5%) tutur.

Xarici mühitlə sıx qarşılıqlı əlaqədə olan hava yükdaşımaları bazarında rəqabətin güclənməsi nəticəsində aviaşirkətlər öz fəaliyyətlərində marketinq və logistika üsullarının səmərəliliyinin yüksəldilməsinə xüsusi diqqət yetirirlər. Aviaşirkətlər hava yükdaşımaları bazarına genişçeşidli xidmətlər, yəni hərəkətlə bağlı əlavə sosial ehtiyacların ödənilməsini təklif edirlər. Yükdaşımalarının strukturunda kiçik paya malik olan hava nəqliyyatı xarici ticarət əlaqələrinin genişləndirilməsində, yüklərin təcili çatdırılmasında və uzaq məsafələrə daşınmasında müstəsna rol oynayır. Nəqliyyat xidmətləri bazarının qloballaşması və milli iqtisadiyyatın açıq sistemli olması yükdaşı-

DOI: https://doi.org/10.36719/2024/X

maları ilə məşğul olan xarici aviasiya şirkətlərinin fəaliyyətinin genişlənməsi imkanlarını sadələşdirir. Belə şəraitdə hava nəqliyyatı ilə yükdaşımaları bazarında dövlətin proteksionist iqtisadi siyasətinin davam etdirilməsi, həmçinin onun subyektlərinin təşkilinin instusional formalarının təkmilləşdirilməsi çox vacibdir.

Hava yükdaşımalarının səmərəliliyinin yüksəldilməsi və xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması aviaşirkətlərin istehsal infrastrukturlarının inkişafından və rəqabət qabiliyyətinin yüksəldilməsindən bilavasitə asılıdır.

“Rəqabət” anlayışı iqtisadiyyata latın dilindəki “concurrentia” sözündən daxil olmuş və Azərbaycan dilinə tərcümədə “toqquşma”, “yarış” deməkdir. Sahibkarlıq fəaliyyətində rəqabət dedikdə eyni məqsədə nail olmaq uğrunda maraqlı olan ayrı-ayrı şirkətlər arasında mübarizə (yarış) aparılması başa düşülür (Abbasov, Abbasov, 2017: 456).

XIX əsrin sonunda rəqabətin struktur konsepsiyası formalaşdı, hansı ki sonralar ön mövqeyə çıxdı. Bu konsepsiyanın əsas müəllifləri F.Esiort, A.Kurno, C.Robinson, E.Çembelin və başqaları olmuşlar. Müasir iqtisad elmində “rəqabət” anlayışı əsasən struktur konsepsiyası baxımından izah edilir. İstehlak bazarı o zaman rəqabətli sayılır ki, burada məhsul satan şirkətlərin sayı çox və hər bir şirkətin bazar payı az olsun, istənilən şirkət öz məhsulunun həcmini artırıb-azaltmaqla bazarda artıq formalaşan qiymətə təsir göstərə bilməsin (Abbasov, Abbasov, 2017: 456).

Müasir bazar iqtisadiyyatı, xüsusilə hava nəqliyyatı üçün **oliqopolik rəqabət** forması daha xarakterikdir. Oliqopolik rəqabət şəraitində istehsalın və təchizatın çox böyük hissəsinə nəzarət edən iri şirkətlər arasında mübarizə gedir. Hər bir şirkət sərbəst bazar siyasəti aparır, lakin bu zaman şirkətlər bir-birindən asılı olur, ona görə də rəqib şirkətlərin strategiyası mütləq nəzərə alınmalıdır. Şirkətlər rəqabət apararkən qiymət

DOI: https://doi.org/10.36719/2024/X

amilinə üstünlük vermirlər, çünki o, şirkətlərin hamısı üçün mənfi nəticələrə gətirib çıxara bilər. Bəzən şirkətlər arasında qiymət sahəsində az və çox dərəcədə qeyri-formal şəkildə gizli razılaşmalar baş verir. Ona görə də oliqopolik şirkətlər arasında rəqabət, adətən, qeyri-qiymət metodları vasitəsilə həyata keçirilir və nəticədə hər bir şirkətin konkret bazar payı müəyyənləşdirilir.

Hava yükdaşımaları bazarı qeyri-təkmil oliqopolik rəqabət bazarıdır, çünki burada məhdud sayda daşıyıcılar çalışırlar, infrastruktur təminatı, anbar təsərrüfatı, yük qovşaqları, informasiya və kommunikasiya sistemləri üçün böyük məbləğdə maliyyə vəsaitinin tələb olunması səbəbindən ölkəyə girişdə ciddi maneələr vardır. Bununla belə, yüksək gəlir əldə etmək məqsədilə yerli məhsullar bazarının bu seqmenti investisiya qoymaq üçün cəlbedici olur. Buna rəğmən hava nəqliyyatına qoyulan investisiyaların həcmi heç də məqbul sayılmır.

İstehlak bazarında rəqabətin səviyyəsini təhlil edərkən sahədaxili və sahələrarası rəqabət fərqləndirilir. Sahədaxili rəqabətdə eyni növ məhsul istehsal edən şirkətlər arasında istehsalın və təchizatın daha əlverişli şəraiti, həmin əmtəənin böyük bazar payı uğrunda mübarizə (yarış) aparılır. Sahələrarası rəqabət şəraitində isə müxtəlif sahələrin əmtəə istehsalçıları arasında investisiya qoyuluşu üçün daha cəlbedici sahənin seçilməsi uğrunda rəqabət mübarizəsi aparılır. Sahələrarası rəqabətin inkişafı nəticəsində maliyyə vəsaiti iqtisadiyyatın aşağı rentabelli sahəsindən yüksək rentabelli sahəsinə axır. “Sahələrarası rəqabət” anlayışı başqa təzahürün xarakteristikası, yəni oxşar, eynitip tələbatı ödəyə bilən müxtəlif sahələrin məhsullarının istehsalçıları və ona görə də bazarda istehlakçı uğrunda yarışda istirakçılar arasında rəqabətin səviyyəsinin təhlili üçün istifadə edilir (Mokakhova, 2008).

Milli iqtisadiyyatın digər sahələri kimi hava nəqliyyatının dayanıqlı və davamlı  inkişafı sağlam rəqabət mühiti formalaş-

**DOI: https://doi.org/10.36719/2024/X**

dırmadan qeyri-mümkündür. İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da rəqabətin dövlət tərəfindən stimullaşdırılması və tənzimlənməsi haqqında qanunvericilik aktları qəbul edilmişdir. Lakin buna baxmayaraq milli hava yükdaşımaları bazarında sağlam rəqabət mövcud deyil, aviaşirkətlər arasında aparılan rəqabət mübarizəsində inhisarçılıq meyilləri müşahidə olunur.

Hava nəqliyyatının dayanıqlı inkişafını təmin etmək məqsədilə onun spesifik xüsusiyyətlərini nəzərə almaqla azad (təkmil) rəqabətin inkişafına maneçilik törədən səbəblərin aşkara çıxarılması və onların aradan qaldırılması istiqamətində stimullaşdırıcı və tənzimləyici tədbirlərin həyata keçirilməsi çox vacibdir. Mütəxəssislərin rəyinə görə, dünya üzrə hava yükdaşıma marşrutu şəbəkələrinin inkişafı regionlara və ölkələrə daha böyük iqtisadi faydalar, o cümlədən əmək məhsuldarlığının ümumi artımını gətirə bilər. Yeni bazarların inkişafı regionlar arasında ixrac-idxal əməliyyatlarının həcmini yüksəldir, hər bir regionun daxili bazarında rəqabət və idxal mallarının seçimi imkanlarını artırır. Kapital qoyuluşlarını effektiv idarə etmək və audit nəticələrinə cavab vermək yükdaşıyan aviaşirkətlərinə əməliyyatlarını optimallaşdırmağa, rəqabət qabiliyyətini yaxşılaşdırmağa və hava yük bazarında uzunmüddətli davamlılığı təmin etməyə kömək edə bilər.

## Ədəbiyyat

1. Abbasov, A.B., Abbasov, S.A. (2017). Biznesin əsasları. Dərslik-Monoqrafiya. Bakı, “Elm və təhsil”, 456 s.
2. Mokakhova, S.V. (2008). Sistema obespecheniya kachestva v aviatsionnykh predpriyatiyakh /Nauchnyi vestnik MGTU GA, №135.

**Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 12-18**
**Modern Requirements in Science and Education X Theses Collection / 12-18**
**DOI: https://doi.org/10.36719/2024/X**

**Teymur Həsənli**
Bakı Biznes Universiteti
magistrant
thesenli425@gmail.com

# DÖVLƏTİN İQTİSADİYYATA FİSKAL TƏSİR METODLARI VƏ FORMALARI

***Açar sözlər:*** *maliyyə-büdcə siyasəti, dövlət büdcəsi, vergi siyasəti, vergi sistemi, büdcə xərcləri*
***Keywords:*** *financial-budgetary policy, state budget, tax policy, tax system, budget expenditures*

Bazar iqtisadiyyatı şəraitində maliyyə-büdcə siyasəti məqsədyönlü və davamlı olmalıdır. Bu o deməkdir ki, gələcək nəsillər üçün borc yükü yaratmamaq üçün dövlət xərcləri və gəlirləri balansda olmalıdır. Burada müvafiq tədbirlərə xərclərə nəzarət, vergi sisteminin optimallaşdırılması, korrupsiyaya qarşı mübarizə və dövlət resurslarından səmərəli istifadə daxil ola bilər. Mərkəzi bank pul siyasətində əsas oyunçudur. Müasir şəraitdə mərkəzi banklar qiymət sabitliyini təmin etmək, inflyasiyaya nəzarət etmək və iqtisadi artımı dəstəkləmək üçün faiz dərəcələrinin tənzimlənməsi və ehtiyat tələbləri kimi pul siyasəti alətlərindən istifadə edə bilərlər.

Büdcələrin gəlir hissəsinin formalaşması üçün əsas kimi vergi daxilolmaları çıxış edir və ona görə də bu gəlirlərin vergiyə cəlb edilməsi, onların hüdudları və artım ehtimalı məsələləri xüsusi maraq doğurur. Vergitutmadan əldə edilən gəlirin məbləği bilavasitə vergi potensialı ilə bağlıdır. Vergi yığımında əsas ümummilli vəzifələrin həlli, antiböhran tədbirlərinin səmərəliliyinin artırılması və sabit və məhsuldar iqtisadi inkişafa nail olmaq üçün vergi potensialının obyektiv

DOI: https://doi.org/10.36719/2024/X

qiymətləndirilməsi zəruridir ki, bu da verginin vəziyyəti haqqında ekstrospektiv məlumatlara ciddi ehtiyac yaradır.

Bazar iqtisadiyyatı şəraitində maliyyə bazarları daha dəyişkən və risklərə məruz qala bilər. Buna görə də hökumətlər maliyyə böhranlarının qarşısını almaq və onların nəticələrini yumşaltmaq üçün maliyyə sektorunu tənzimləmək və nəzarət etmək üçün tədbirlər görə bilər. Qloballaşma şəraitində fiskal və pul siyasətinin inkişafı planının tətbiqi iqtisadi ekspertlər, ictimai təşkilatlar və maraqlı tərəflərlə məsləhətləşmələr yolu ilə həyata keçirilməlidir.

Dövlətin sərəncamında olan bütün pul vəsaitləri "büdcə" anlayışı ilə birləşir. Məhz bu kateqoriya ilə büdcə siyasəti və iqtisadiyyatın tənzimlənməsinin büdcə üsulları əlaqələndirilir. Büdcə tənzimlənməsi müəyyən edilmiş dövlət minimum sosial standartları nəzərə alınmaqla yerli büdcələrin gəlirlərinin sabitləşdirilməsi üçün həyata keçirilən müxtəlif səviyyəli büdcələr arasında vəsaitlərin bölüşdürülməsi və yenidən bölüşdürülməsi üzrə əməliyyatların məcmusudur. Qanunla müəyyən edilmiş gəlir mənbələrinin müxtəlif səviyyəli büdcələr arasında bölüşdürülməsi büdcə tənzimlənməsinin əsasını təşkil edir. Büdcələrin tərkibinə məqsədli və ehtiyat büdcə fondları daxil ola bilər. Bu vəsaitlər sosial, iqtisadi və digər məqsədlərin həyata keçirilməsi üçün yuxarı səviyyələrin büdcələrindən aşağı səviyyələrin büdcələrinə pulsuz köçürülür.

Büdcə tənzimlənməsi dövlətin ərazi fərqlərinin bərabərləşdirilməsinə yönəlmiş aparıcı funksiyalarından biridir. Onun məqsədi iqtisadiyyatın sabitliyini dəstəkləmək, onun mütənasibliyini və tarazlığını təmin etmək, cəmiyyət həyatının qlobal problemlərinə dair qərarlar qəbul etməkdir. Bazar iqtisadiyyatının müasir reallıqlarında dövlətin maliyyə resurslarının bölüşdürülməsinə müdaxilə səviyyəsi qeyri-bazar iqtisadiyyatı ilə müqayisədə xeyli azdır və o, əsasən dolayı xarakter daşıyır.

DOI: https://doi.org/10.36719/2024/X

İqtisadi artımın büdcə tənzimlənməsinin nəzəri əsaslarının yaradılması ilə bir çox tanınmış iqtisadçılar (D.Keyns, A.Hansen, P.Samuelson, U.Heller və b.) məşğul olmuş, onlar nəzəri müddəa irəli sürmüşlər. İqtisadi sistemin yüksək dərəcədə dəyişkənliyi, milli sərvətin bazar mexanizmləri vasitəsilə qeyri-bərabər bölüşdürülməsi səbəbindən sabit iqtisadi artımın təmin edilməsinin müstəsna qeyri-mümkünlüyündən ibarət idi. İqtisadi artımın regional büdcə vəsaiti hesabına tənzimlənməsi kredit faiz dərəcəsindən, istehlak normasından və gəlirlik normasından istifadə etməklə üç istiqamətdə həyata keçirilir. Dövlət xərclərinin azaldılması büdcə tənzimlənməsinin alətlərindən biridir ki, bu da inflyasiya səviyyəsi ilə dövlət xərclərinin həcmi arasındakı əlaqəyə əsaslanır. Büdcə xərclərinin azaldılması inflyasiyanın sürətini azaltmağa imkan verir. Eyni zamanda, sosial xərclərin artması iqtisadi artım tempini əhəmiyyətli dərəcədə azaldır.

Beləliklə, büdcə tənzimlənməsinə ehtiyac təsdiqlənir ki, bu da ondan ibarətdir ki, dövlət büdcəsi vəsaitlərinin bölüşdürülməsi onların istifadəsinin bütün sahələri üzrə aparılır, bundan əlavə, büdcə ayırmaları az və ya çox dərəcədə müxtəlif sənaye sahələrinə, sahələrə ayrıla bilər. Eyni zamanda, dövlət orqanları büdcəyə əlavə vergi olmayan ödənişlər müəyyən edirlər. Məhz bu yolla pul dövriyyəsinin və pul yığılmasının dövlət tənzimlənməsinin həyata keçirilməsi mümkündür. Dövlət tənzimləməsi, həmçinin, dövlət büdcəsi kəsirinin yol verilən maksimum həddinin müəyyən edilməsini də əhatə edir. Dövlət büdcəsi müxtəlif sənaye sahələrinin, regionların və fəaliyyət sahələrinin inkişafı və fəaliyyətini maliyyələşdirir. Birbaşa maliyyələşdirmə və birbaşa dövlət investisiyaları vasitəsilə büdcənin maliyyələşdirilməsi qrantlar, subsidiyalar, subvensiyalar şəklində həyata keçirilir. Xərclərin strukturunda ən çox müdafiə olunmayan maddə sosial xərclər hesab olunur. Onların formalaşmasının əsasını əhalinin müəyyən qruplarının

DOI: https://doi.org/10.36719/2024/X

sayı, sosial norma və standartlar, sosial siyasətin həyata keçirilməsinin proqram-məqsədli üsulları təşkil edir.

Qlobal maliyyə böhranı şəraitində bir çox dövlətlər vergi tənzimlənməsi vasitəsi ilə iqtisadiyyatın böhrandan çıxmasına kömək etməyə çalışırlar. Bununla belə, dövlətin vergi mexanizminin və vergi siyasətinin məzmunu məsələsi hələ də açıq qalır. Bu, çox vaxt vergi münasibətlərinin tənzimlənməsi sahəsində dövlətin çoxistiqamətli, bir-biri ilə əlaqəsi olmayan hərəkətlərinə gətirib çıxarır.

"Vergilər və vergitutma" (Musayev, 2014: 14-44) dərsliyinin müəllifləri A.E.Serdyukov, E.S.Vılkova və A.L.Taraşeviçin təklif etdikləri kateqoriyaların fəlsəfi, linqvistik və iqtisadi mənasının ardıcıl nəzərdən keçirilməsinin məntiqi çox inandırıcı görünür.

Vergi nəzarəti ifadəsini tədqiq etdikdə, M.Karaseva dövlətdə vergitutma sferasında mövcudluğu ilə seçilən siyasi, iqtisadi, təşkilati və hüquqi xarakter daşıyan bütöv ictimai münasibətlərin cəmi anlamına istinad edir (Karaseva, 2011: 324).

Aparılmış tədqiqatlardan sonra bu müəlliflər dövlətin vergi siyasətinin aşağıdakı tərifinə gəliblər: "dövlət orqanlarının və dövlət idarəçiliyinin vergitutma məsələlərinin kompleks həlli üçün dövlətin ümumi iqtisadi strategiyası çərçivəsində həyata keçirilən fəaliyyəti, vergitutma məsələlərinin kompleks həlli konkret dövlətin tarixi inkişafının müvafiq mərhələsində onun maraq və məqsədləri" (Məmmədov, Yusifov, Seyfullayev, 2015: 38). Bununla belə, bu tərifdə müəlliflərin dövlət orqanlarına necə qarşı çıxdıqları qeyri-müəyyən olaraq qalır. Bildiyiniz kimi, dövlət orqanları hökumətə məxsusdur. Eyni zamanda, müəlliflər vergilər sahəsində yerli özünüidarəetmə orqanlarının imkanlarını nəzərə almayıblar.

V.Q.Panskovun verdiyi tərif də maraqlıdır. Vergi siyasəti dövlətin, cəmiyyətin ayrı-ayrı sosial qruplarının maliyyə

DOI: https://doi.org/10.36719/2024/X

tələbatının ödənilməsi, habelə yenidən bölüşdürülməsi yolu ilə ölkə iqtisadiyyatının inkişafı məqsədi ilə ölkənin vergi sistemini formalaşdırmaq üçün dövlətin iqtisadi, maliyyə və hüquqi tədbirlərin məcmusudur (Məmmədov, Yusifov, Seyfullayev, 2015: 49). Bu tərif təkcə dövlətin (müəyyən inkişaf mərhələsində) deyil, həm də ayrı-ayrı sosial qrupların maraqlarını, habelə ölkə iqtisadiyyatının inkişafını nəzərə alır. Lakin son iki məqsəd vergi siyasətinin məqsədlərinə deyil, dövlətin özünün məqsədlərinə aiddir. Həqiqətən də, bu məqsədlər üçün yenidən bölüşdürmə ondan kənarda deyil, ölkənin büdcə sistemi vasitəsilə həyata keçirilir.

V.N.Edronova və N.N.Mamıkin "vergi siyasəti" anlayışının tərifinə aşağıdakı kimi yanaşır: "vergi siyasəti subyektinin vergi münasibətlərini tənzimləyən hüquqi, iqtisadi və təşkilati tədbirlərin məcmusu..." (Edronova, Mamıkin, 2017: 38).

Beləliklə, tədqiq olunan anlayışı oxşar anlayışlardan fərqləndirən spesifik xüsusiyyətlərini müəyyən etmək mümkündür:

1.Müəssisənin vergi siyasətindən fərqli olaraq dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının tədbirlər sistemidir;

2.Sosial, hərbi siyasətdən fərqli olaraq dövlətin iqtisadi strategiyasının tərkib hissəsidir;

3.Dövlət tənzimlənməsinin imperativ-dispozitiv (iqtisadi və hüquqi) xarakteri daşıyır;

4.Kredit, pul siyasətindən fərqli olaraq vergitutma məsələlərinin kompleks həllini nəzərdə tutur;

5.Vergi nəzəriyyələrindən fərqli olaraq, vergitutma tarixini konkret dövlətin tarixi maraq və məqsədlərini nəzərə almağa yönəlmişdir.

Nəticə etibarı ilə dövlətin vergi siyasətinin bütün xüsusiyyətlərinə cavab verən tərifi tərtib edə bilərik ki, dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının imperativ-

**DOI: https://doi.org/10.36719/2024/X**

dispozitiv xarakter daşıyan, ümumi iqtisadi siyasətin tərkib hissəsi olan tədbirlər sistemidir.

İqtisadiyyatın səmərəli tənzimlənməsi, onun mütərəqqi inkişafının təmin edilməsi, investisiya fəaliyyəti, kiçik və orta sahibkarlıq üçün əlverişli şərait yaradılması daha çox düzgün qurulmuş vergi siyasətindən, vergi tənzimlənməsindən asılıdır. Vergi siyasəti dövlətin əsas alətidir ki, onun köməyi ilə ölkədə vergi potensialı formalaşdırılır, inkişaf etdirilir və ondan səmərəli istifadə etməklə böyük zirvələrə nail olmaq mümkündür. O, iqtisadiyyatın ayrı-ayrı sahələrinin sosial-iqtisadi inkişafına təkan verməklə, ölkənin əsas funksiyalarını həyata keçirmək üçün resurslara olan maraq və tələbatının yüksək dərəcədə ödənilməsi nəzərə alınmaqla qurulmalıdır.

Məhz vergi potensialı bu gün regionların sosial-iqtisadi inkişafının yaxşılaşdırılması ilə bağlı əsas müzakirə obyekt-lərindən biridir. Müasir şəraitdə istənilən dövlət regionların özünümaliyyələşdirmə qabiliyyətini hesablamaq və büdcələr-arası bərabərləşdirmə siyasətinin aparılması şəklində özünü göstərən dövlət dəstəyinə ehtiyacı müəyyən etmək üçün vergi potensialı göstəricisindən istifadə edir. Buna əsaslanaraq, vergi potensialının formalaşması mexanizmlərinin və nəzəri əsasların ətraflı öyrənilməsinə, bu göstəricinin artırılması üçün alətlərin işlənib hazırlanmasına və vergitutma üzrə universal qiymət-ləndirmə metodunun formalaşdırılmasına ehtiyac var.

Milli iqtisadiyyatda maliyyə fondlarının fasiləsiz dövriyyə-sinin təşkili və əhaliyə sosial dəstəyin göstərilməsi üçün pul vəsaitlərinin təsərrüfat subyektlərinin və sahələrin çərçivə-sindən çıxaraq mərkəzləşdirilməsi vacibdir. Cəmiyyətdə bu funksiyanı dövlət büdcəsi yerinə yetirir. Dövlət də bir ailədir, öz ailəsinin üzvü olan vətəndaşların sosial rifahını, normal yaşayışını təmini hədəfilə, həmçinin siyasi, iqtisadi, sosial və s. vəzifələrin öhdəsindən layiqincə gəlmək məqsədilə gəlir mənbələrini səfərbər edərək, onları təyinatı üzrə fərqli isti-

**DOI: https://doi.org/10.36719/2024/X**

qamətlərə yönəldir. Bunun üçün dövlət hər il öz büdcəsini işləyib hazırlayır və onun bazasında öhdəliklərini müvəffəqiyyətlə icra edir. Dövlət büdcəsi milli iqtisadiyyatın dayanıqlı inkişafına, sosial proqramların reallaşdırılmasına, ətraf mühitin mühafizəsinə, elmi-texniki tərəqqinin stimullaşdırılmasına, institusional və struktur islahatların aparılmasına, respublikanın müdafiə qüdrətinin daha da gücləndirilməsinə kömək göstərir.

## Ədəbiyyat

1. Musayev, A.F. (2014). Vergi potensialı və onun qiymətləndirilməsi üsulları // Azərbaycanın vergi jurnalı, Bakı, s. 55-70.
2. Karaseva, M. (2011). Finansovoe pravo. Uchebnik. Moskva. 617 s.
3. Məmmədov, Ə.C., Yusifov, C.R., Seyfullayev İ.Z. (2015). Vergi və tərəqqi. Bakı, 324 s.
4. Edronova, V.N., Mamıkin, N.N. (2017). Vergi auditinin təşkili və üsulları. Kiyev, TsNL.

DOI: https://doi.org/10.36719/2024/X

**Yusif Mehtiyev**
Bakı Biznes Universiteti
magistrant
yusif-mehtiyev@mail.ru

# MALİYYƏ-VERGİ NƏZARƏTİNİN ZƏRURİLİYİ VƏ BÜDCƏ SİSTEMİNİN DAYANIQLIĞINA TƏSİRİ

***Açar sözlər:****maliyyə nəzarəti, vergi daxilolmaları,büdcə sistemi, dövlət büdcəsi, nəzarət sistemi*

***Key words:*** *financial control, tax revenues, budget system, state budget, control system*

Hər bir cəmiyyətdə daim müxtəlif və ciddi təsirlərə məruz qalan iqtisadiyyatda baş verən arzuolunmaz proseslər öz-özünə tənzimlənmədiyi üçün, cəmiyyətin iqtisadi-sosial həyatında bir çox problemlər meydana çıxır və belə olan tərzdə dövlətin gördüyü qabaqlayıcı iqtisadi tənzimləmə mexanizminin həyata keçirilməsi çətinləşir. Bununla əlaqədar olaraq, həmin problemləri, yəni cəmiyyətin iqtisadi-sosial inkişafına maneçilik törədən təsirləri vaxtında aradan qaldıra bilən iqtisad yönlü nəzarət sisteminin təşəkkül tapması zərurəti yaranır.

Dövlətin iqtisadiyyata təsiretmə qüvvəsinə malik nəzarət sisteminin ən mühümü sayılan maliyyə nəzarətinin məqsədi dövlətin maliyyə siyasətinin uğurla həyata keçirilməsini xalq təsərrüfatının bütün sahələrində maliyyə ehtiyatlarının formalaşdırılması və səmərəli istifadəsi prosesinin layiqincə görülməsini təmin etməkdən ibarətdir.

Vergi bəşəri tarixə malik sistemdir. Aparılan müşahidələr əsasında vergi anlayışı ictimai münasibətlərin formalaşdırılması və dövlət quruluşunun təşəkkül tapması ilə demək olar ki, eyni vaxta təsadüf edilir. O, bilavasitə dövlətin inzibati aparatının saxlanılmasından ötrü büdcənin yaradılması zərurətilə

DOI: https://doi.org/10.36719/2024/X

bağlılıq ortaya qoyur, daha dəqiq desək, vergi bəşəri tarixə malik olmaqla yanaşı, bəşəriyyətin təşəkkül tapması və formalaşması elə eyni zamanda meydana gəlib. Dövlət quruluşunun meydana gəlməsi vergi məsələsinin ortaya çıxmasına obyektiv zərurət yaratmışdır. Yəni dövlət inzibati aparatı meydana gələn zaman onun saxlanılması, inkişaf etdirilməsi üçün büdcə gəlirlərinin olmasına böyük ehtiyac duyulmuşdur. Bu barədə iqtisadçı alim və mütəxəssislərin yanaşmaları fərqli olsa da, mahiyyət etibarı ilə məzmun eynidir. Bu fikirlərin təsdiqinə dünya alimlərinin, o cümlədən ingilis iqtisadçıları S.Parkinsonun, K.Marksın, A.Smitin əsərlərində də rast gəlmək olar.

Vergilərin iqtisadi mahiyyətinə gəldikdə isə ictimai-iqtisadi formasiyanın quruluşundan və formasından asılılıq ortaya qoymadan bütün zamanlarda vergilərin məzmun və mahiyyəti oxşarlıq təşkil edir. Vergi dövlət sisteminin, dövlət aparatının saxlanması və onların məsrəflərinin bağlanmasından ötrü mənbə və mexanizmdir. Vergi nəzəriyyəsinə fərqli prizmalardan iqtisadi baxışlar və yanaşmalar mövcuddur. Vergi sisteminin inkişafına rəğmən, tam bu proseslərin nizamlanmasına yanaşmalar da müxtəlifliyilə diqqəti cəlb edir. Vergi nəzəriyyəsinin təkamülü iqtisadi fikirlər tarixinin formalaşması ilə palalel inkişaf etdirilmişdir.

Dövlətin ixtiyarında olan tam pul vəsaitləri "büdcə" məfhumu ilə ifadə olunur. Elə bu kateqoriya ilə büdcə siyasəti və iqtisadi arenanın tənzimlənməsi büdcə vasitələri ilə əlaqələndirilir. Büdcə tənzimlənməsində əksini tapmış dövlət minimum sosial standartları diqqətdə saxlanılmaqla yerli büdcələrin gəlirlərinin sabitləşdirilməsi üçün reallaşan fərqli səviyyəli büdcələr dairəsində vəsaitlərin bölgüsü və təzədən bölüşdürülməsi boyunca əməliyyatların toplusudur. Qanunla aydınlıq gətirilmiş gəlir kanallarının fərqli səviyyəli büdcələr dairəsində bölgüsü büdcə nizamlanmasının ana xəttini təşkil edir. Büd-

DOI: https://doi.org/10.36719/2024/X

cələrin tərkibinə daxil olan büdcə fondları vəsaitləri sosıal, iqtisadi və digər hədəflərin reallaşmasından ötrü yuxarı səviyyələrin büdcələrindən aşağı səviyyələrin büdcələrinə pulsuz köçürülür. Büdcə tənzimlənməsi dövlətin ərazi fərq-lərinin bərabərləşdirilməsinə yönəlmiş aparıcı funksiyalarından biridir. Onun məqsədi iqtisadiyyatın sabitliyini dəstəkləmək, onun mütənasibliyini və tarazlığını təmin etmək, cəmiyyət həyatının qlobal problemlərinə dair qərarlar qəbul etməkdir.

Maliyyə nəzarəti anlayışının şərhində alimlər arasında yekdillik yoxdur. U.Y.Danilevski isə maliyyə-vergi nəzarətinin tərifini bu cür açıqlamışdır: "İqtisadiyyatın, istehsalın idarə edilməsinin ümumi mexanizminin vacib funksiyalarından hesab edilən və ayrılmaz tərkib hissəsi olmaqla, maliyyə-vergi nəzarəti maliyyə, kredit göstəricilərini özündə cəmləşdirir. Nəzarət sferasına əsasən pul, istehsal, bölgü, mal-material dəyərlərinin pulla ifadəsində dövriyyəsi və istehlakı aid edilir". Belə olan durumda bu nəticəyə gəlmək olur ki, maliyyə-vergi nəzarəti təsərrüfatçılıq mexanizminin vacib ünsürü sayılmaqla dəyər xarakterinə malikdir (Danilevskii, 2015: 76).

K.S.Belskinin təbirincə, vergi sistemi - vergitutma sfera-sında müəyyən prinsiplərə əsaslanan qarşılıqlı əlaqədar hissə-lərin (elementlərin), vətəndaşların vergiödəmə qabiliyyətinin, vergi və yığımların qanunla müəyyənləşdirilmiş sisteminin, vergi inzibatçılığının və dövlət tərəfindən tətbiq edilən ver-gitutma metodlarının məcmusudur (Bel'skii, 2006: 55).

M.V.Karaseva vergi sistemi dedikdə, dövlətdə vergitutma sferasında yaranan və iqtisadi, siyasi, təşkilati və hüquqi xarakterə malik olan bütün mövcud ictimai münasibətlərin məcmusunu başa düşür (Karaseva, 2011: 324).

Maliyyə-vergi nəzarətinin başlıca hədəfi - ölkənin maliyyə siyasətini uğurla reallaşdırmaq, iqtisadiyyatın hər bir sferasında maliyyə vəsaitlərinin formalaşdırılması və məqsədəuyğun istifadəsi prosesinin reallaşdırılmasının təminindən ibarətdir.

DOI: https://doi.org/10.36719/2024/X

Nəzarət funksiyası mühasibat uçotu köməkliyi ilə onun tam metod hissələrində: sənədləşdirmə, inventarlaşdırma, qiymət və kalkulyasiya hesablama sistemi və ikiqat qeydə alma, balans və hesab sənədlərinin yardımından yararlanmaq ilə reallaşır.

Dövlət büdcəsinin gəlirlərinin formalaşmasının başlıca mənbəyi olan vergi yığımlarının xeyli dərəcədə vergi ödəyicilərinin intizamlı olmasından, onların qanunvericiliyin tələblərinə ciddi riayət etməsi səviyyəsindən bilavasitə asılıdır. Vergi nəzarətinin səmərəlilik səviyyəsinin aşağı olması durumunda vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinə tam həcmdə və vaxtlı-vaxtında əməl edəcəkləri heç də inandırıcı görünmür. Beləliklə, vergi nəzarəti bir tərəfdən zəruri maliyyə vəsaitlərinin dövlət büdcəsinə vaxtında daxil olmasının təminini reallaşdırır, digər istiqamətdən isə vergi ödəyicilərinin intizamlılığına nəzarəti həyata keçirir.

Vergi nəzarəti dövlətin səlahiyyətli orqanlarının kompleks və məqsədyönlü fəaliyyətini əks etdirməklə, vergitutma sahəsində mövcud olan qanunvericiliyə əsaslanır və vergi ödəyicilərinin vergini ödəmək vəzifələrinin yerinə yetirilməsi ilə bağlı məlumatlarının toplanması və təhlilinə yönəlmişdir. Bu nəzarətin əsas məqsədi vergi qanunvericiliyinin pozulması hallarının aşkar edilməsi, onların qarşısının alınması, beləliklə də sahibkarlıq fəaliyyətinin bütün subyektləri üçün bərabər və ədalətli vergi mühitinin yaradılmasıdır.

Büdcə-maliyyə sisteminin əsasını vergi sistemi təşkil edir. Vergi ödəmələrinin mahiyyətini dərindən öyrənmək üçün vergiqoymanın əsas prinsiplərini nəzərdən keçirmək lazımdır. İqtisadi nöqteyi-nəzərdən vergiqoyma sisteminin keyfıyyəti A.Smit tərəfindən dörd əsas klassik prinsiplər şəklində ifadə olunmuşdur:

- ölkə vətəndaşları hökumətin xərclərinin ödənməsində iştirak eləməlidirlər. Bu qaydaya riayət olunması və ya inkar edilməsi vergiqoymada bərabərliyə və ya bərabərsizliyə gətirir;

**DOI: https://doi.org/10.36719/2024/X**

- hər bir vətəndaşın ödədiyi vergi dəqiq müəyyən edilməlidir. Verginin həcmi, ödənilmə vaxtı və qaydası həm vergi ödəyənə, həm də ixtiyari bir vətəndaşa aydın olmalıdır;

- vergi onu ödəyəndən ötrü rahat olan zamanda və onun üçün münasib üsula əsasən tutulmalıdır;

- vergilər elə müəyyən edilməlidir ki, dövlətin xəzinəsinə daxil olan ümumi daxilolmalardan aşağı məbləğdə tutulsun.

Sahibkarlığın hərtərəfli və çoxşaxəli inkişafının təmin edilməsinin başlıca amillərindən biri də müvaflq fəaliyyət sahəsində əlverişli və münbit, təkmilləşdirilmiş, müasir beynəlxalq standartlara uyğun vergi sisteminin mövcudluğu və ədalətli vergiqoyma ilə bərabər vergi nəzarəti mexanizminin tətbiqidir. Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi vergi nəzarətinin əsas vəzifələrindən biridir. Odur ki, ölkəmizin vergi sistemində həyata keçirilən islahatların əsas istiqamətlərindən biri məhz vergi nəzarətini təkmilləşdirməkdən ibarətdir. Ölkəmizdə vergi nəzarətini təkmilləşdirməyə yönəlik tədbirlər öz ifadəsini daha çox daim yenilənməkdə olan Vergi Məcəlləsində tapmışdır. Xüsusilə, son vaxtlar dövlətin iqtisadiyyatın ümumi inkişafında prioritet istiqamətlərdən biri kimi ölkədə azad sahibkarlığın davamlı inkişafi üçün hər cür zəruri şəraitin yaradılmasını elan etdiyini nəzərə alsaq, bu amilin əhəmiyyəti daha da artmış olur. Həmçinin, iqtisadiyyatda, xüsusilə də qeyri-neft sektoru istiqamətində nəhəng perspektivli infrastruktur layihələrinin reallaşdırılması məqsədilə maliyyə mənbəyi olan dövlət büdcəsinin gəlirlərində vergi daxilolmalarının tam üstunlük təşkil etdiyini hesaba almaqla vergi nəzarəti işinin düzgün və səmərəli təşkili olduqca vacib məsələdir.

Müasir dövrdə maliyyə-vergi nəzarəti dövlət idarəetməsinin ən vacib funksiyalarından biri olub, dövlət mülkiyyətinin idarə edilməsinin qanuniliyi, məqsədəuyğunluğu və səmərəliliyi məsələlərində qəbul edilmiş standartlardan yayınma hallarının

**DOI: https://doi.org/10.36719/2024/X**

aşkar edilməsinə, bu cür meyillər yarandıqda isə uyğun tədbirlərin vaxtında həyata keçirilməsinə yönəlmişdir. Ölkənin maliyyə siyasətini uğurla həyata keçirmək, maliyyə ehtiyatlarının effektiv surətdə istifadəsinə nail olmaqda maliyyə nəzarətinin rolu olduqca vacibdir. Maliyyə mexanizminin idarəedilməsi sisteminin təzədən yaradılması maliyyə resurslarından istifadənin səmərəliliyinin artırılması, dövlət xərclərinin şəffaf tənzimlənməsi mexanizminin formalaşdırılması qarşıya qoyulan strateji vəzifələrdəndir.

## Ədəbiyyat

1. Danilevskii, YU.A. (2015). Finansovyi kontrol' i puti ego sovershenstvovaniya. Moskva.
2. Bel'skii, K.S. (2006). Nalogovaya sistema: osnovnye ehlementy, printsipy Gosudarstva i prava. №9. c. 55.
3. Karaseva, M. (2011). Finansovoe pravo. Uchebnik. Moskva, 617 c.

Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 25-30
Modern Requirements in Science and Education X Theses Collection / 25-30
DOI: https://doi.org/10.36719/2024/X

**Fidan Ələkbərova**
Bakı Biznes Universiteti
magistrant
alekperfidan@gmail.com

# MÜƏSSİSƏYƏ İNVESTİSİYA FƏALİYYƏTİNİN MALİYYƏ NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *investisiya fəaliyyəti, kapital qoyuluşu, investisiya mühiti, inflyasiya, sərmayə qoyuluşu*

***Keywords:*** *investment activity, capital investment, investment environment, inflation, investment*

Milli istiqlalına uzun dövrdən sonra yenidən qovuşan və dünyanın iqtisadi müstəvisinə sürətlə inteqrasiya olunan ölkəmiz iqtisadi sistemin başqa sahələrilə palalel maliyyə sferasında da əsaslı yeniləşmələri uğurla reallaşdırır və şübhə doğurmadan dayanıqlı iqtisadi inkişaf tempinə yiyələnməkdən ötrü maliyyə sektorunun genişdiapazonlu təşəkkülü prosesi daha da sürətlənir. Bu prizmadan maliyyə dairəsində islahati yeniliklərin davamı – maliyyə ehtiyatlarının çevik axınının təmininə, real sektorun maliyyə ehtiyatlarına olan ehtiyacının optimal ödənilməsinə və s. imkan verən tədbirlərin gerçəkləşməsi çox önəmlidir. O cümlədən, müasir bazar iqtisadiyyatı münasibətləri məqamında maliyyə resurslarının təşəkkülü, onlardan məqsədəuyğun faydalanması və məqsədəuyğun idarəolunması dövlət və sahibkarlıq subyektlərinin qarşısına çıxan prioritet məsələlərdən ən önəmlisi sayıla bilər.

Ölkədə investisiya fəaliyyətinin canlandırılması və səmərəli investisiya siyasətinin həyata keçirilməsində dövlətin xüsusi rolu vardır. İqtisadiyyatın transformasiyası dövründə bu xüsusilə zəruridir. Yerli istehsalın inkişafına investorları cəlb

DOI: https://doi.org/10.36719/2024/X

etmək üçün Azərbaycan hökumətinin bu sahədə fəaliyyətinin prioritet istiqamətlərindən biri sabit investisiya qanunvericiliyi bazasının formalaşdırılması olmuşdur. Dövlətin bu məsələyə diqqətlə yanaşması nəticəsində ölkədə investisiya münasibətlərinin inkişafı və tənzimlənməsinin daha səmərəli rejimini formalaşdırmağa imkan verən mükəmməl qanunvericilik bazası və onun çevik və işlək mexanizmi hazırlanmışdır.

Bazar iqtisadiyyatının inkişafını təmin edən əsas vasitələrdən biri investisiya qoyuluşu prosesi, həmçinin investisiyaların gerçəkləşməsi üzrə praktiki fəaliyyətin məcmusu olan investisiya fəaliyyətidir. İnvestisiya fəaliyyətinin dinamik və səmərəli inkişafı ölkə iqtisadiyyatının stabil inkişafının əsas şərti hesab olunur. İnvestisiya prosesi gerçəkləşdirərkən ən başlıca iş düşünülmüş, əsaslandırılmış və real durumu özündə əks etdirən investisiyaların maliyyələşdirilməsi üsullarıdır. Sonuncu, çoxsəmtli təsərrüfat qərarlarının məcmusu olub kapital qoyuluşlarının əsas istiqamətlərini müəyyənləşdirir. Onları sənayenin, aqrar sahənin həlledici sahələrində cəmləşdirməklə, mövcud inflyasiyanın qarşısını almaq, iqtisadiyyatı sabitləşdirmək, onun səmərəliliyini artırmaqla yüksək milli gəlirə nail olmaq mümkündür.

İnvestisiyaların maliyyələşməsinin təkmilləşdirilməsi üsulları respublikanın iqtisadi cəhətdən yüksəlişində rol oynayan mühüm amildir. Digər prizmadan, bütün ölkələr məhdud olan mənbələrdən məqsədəuyğun və bərabər tərzdə yararlanmaq məcburiyyəti qarşısındadırlar. İnvestisiyaların maliyyələşdirilməsi üsullarının geniş analizi alternativlər arasında ölkə iqtisadiyyatının maraqlarına uyğun olanının seçilməsinə yardımçı olan alətdir.

Həm maliyyə, eləcə də pul prizmasından inflyasiya ilkin istehsal prosesilə əlaqədardır, belə ki o, özlüyündə istər milli gəlirin təzədən bölgüsü mərhələsində maliyyə, istərsə də əhatəli məfhum və təkrar istehsalın cəmi faza etaplarında

DOI: https://doi.org/10.36719/2024/X

proses hesab edilən pulla şərtləşir. Amma ən geniş diapazonda inflyasiya, onun səviyyə göstərici istehsal həm çoxalma, həm də enmə mənasında, qiymət amili, istehsal məsrəfləri, bəsit maliyyə və pul münasibətləri, onların neqativ və pozitiv tərzdə assimilyasiya olunması ilə bağlıdır.

Yəni iqtisadi sferadakı yüksəlişdə qeyri-müəyyənlik, enerji idxalı, struktur, istehsal istehlakı kimi problem məsələlərin xassələri dövlət büdcəsi gəlirlərinə, büdcə kəsirinə, dövlət və özəl sferanın maliyyə durumuna, o cümlədən dövlət borcunun həcminə və bunlara rəğmən sırf bu kimi səpkidə olanlara birbaşa təsir gücünü göstərmiş olur. Barəsində bəhs etdiyimiz bu vəziyyət pul tədavülü dairəsində cərəyan edən inflyasiya dərəcəsində özünü bəyan edir, bir proses, diapazonda baş verən böhranlı durum və əksinə, dayanıqlı hal digərinə təsir göstərir.

İnflyasiya durumunda firmanın stabil funksiya göstərməsindən ötrü lazımi kapitalın miqdarı mütəmadi çoxalır. Bu isə sərf olunan xammal qiymətinin və əmək ödənişilə bağlı məsrəflərin yüksəlməsi ilə sıx surətdə bağlıdır. Ümumiyyətlə, hətta mürəkkəb olmayan təkrar istehsal prosesi, yəni kompaniyanın iqtisadi sahədə potensialını mövcud qaydada stabil saxlaması əlavə maliyyə vasitələri istəyir. Bu situasiya firmanın maliyyə məsələləri ilə əlaqədar iş fəaliyyətinin gələcəkdə planlaşdırılmasında diqqət mərkəzində saxlanılmalıdır.

S.Abbasov investisiyanı müxtəlif formalı maliyyə və maddi sərvətləri sərbəst pul vəsaitləri qoyuluşu kimi ümumiləşdirir. Müəssisənin investisiya fəaliyyətinin strateji məqsədləri onun strateji investisiya mövqeyini rəsmi əks etdirən arzuolunan parametrlərdir ki, bunlar da həmin fəaliyyəti uzunmüddətli perspektivə yönəltməyə və onun nəticələrini qiymətləndirməyə imkan verirlər (Abbasov, 2009: 288).

A.Şilov investisiyanı mənfəət və sosial səmərəyə nail olmaq məqsədilə sahibkarlıq fəaliyyəti obyektlərinə, məqsədli bank əmanətləri, səhmlər və digər qiymətli kağızlar, texno-

DOI: https://doi.org/10.36719/2024/X

logiya, maşın, avadanlıqlar, lisenziya (o, cümlədən əmtəə nişanlarına), har hansı digər əmlak və əmlak hüquqi, intellektual sərvətlərə qoyulan pul vəsaitləri kimi dəyərləndirir (Shilov, 2011: 127-137).

İnvestisiya menecmenti sahəsində çoxlarımıza tanış olan amerika alimləri L.C.Qitman və M.D.Conk yazırlar ki, investisiya strategiyasının işlənib hazırlanması üçün investorlar vergi qanunvericiliyinin tələbləri nəzərə alınmaqla investisiya məqsədləri və proqramlarını, likvidliyə və pensiya təminatına tələbləri müəyyənləşdirməlidirlər (Gitman, Dzhonk, 1999: 1008).

Tanınmış professor T.Ə.Quliyevin təbirincə, ölkəmizdə investisiyanın idarə edilməsi yalnız ayrı-ayrı normalar və təminatlarla məhdudlaşmamalı, konseptual əsaslarla həyata keçirilməlidir. Başqa sözlə, bütün başqa ölkələrdə olduğu kimi, Azərbaycanın da "... həqiqi milli investisiya menecmenti formalaşmalıdır..." və hamı "... sistemli qaydada belə bir menecmentin işlək olmasını təmin etməlidir" (Quliyev, 2001: 518).

Bizim fikrimizcə, investisiyaya iqtisadi inkişaf strategiyasının reallaşdırılması üçün zəruri olan maliyyələşdirilmənin həyata keçirilməsi obyekti kimi baxmaq olar.

İnflyasiya mühitində sahibkarlar öz kapital yatırımlarının təhlükəsizlik məsələlərinə nail olunmasına ciddi irad nümayiş etdirirlər. Bu an faktiki şəkildə 2 cür düzəliş cərəyan edir: inflyasiya surətinə əlavə edilməklə nominal qaydada stavka və inflyasiya surətinə əlavə edilməməklə həqiqi stavka. Maliyyə müqavilələri imzalanarkən nominal qaydada stavkadan faydalanır. İnflyasiya dövründə daxili və kənar mənbələrdən formalaşan kapitalın maliyyə mənbələrinin dəyəri çoxalır. Elə bu meyli maliyyə meneceri əldə ediləcək vəsait ehtiyatlarını planlaşdırma apararkən hökmən diqqət dairəsində saxlamalıdır.

DOI: https://doi.org/10.36719/2024/X

Beləliklə, investisiyanın qiymətləndirilməsi zamanı inflyasiyanın nəzərə alınmasına rəğmən aşağıdakı nəticələri çıxarmaq olar:

1. İnflyasiyanı nəzərə almaq lazımdır.
2. Kapital qoyuluşu büdcəsinin formalaşması zamanı inflyasiyanın təhrif olunan təsirinin aradan qaldırılmasının daha səmərəli yolu qiymət dəyişmələrinin təsiri altında onların dəyişmə dərəcəsindən asılı olmaqla ayrılan pul axını tərkibinin təshihindən ibarətdir.
3. İnflyasiyanın gələcək templərinin dəqiq qiymətləndirilməsini aparmaq mümkün olmadığına görə, səhvlər qaçılmazdır.
4. İnflyasiya kapital qoyuluşunun risk dərəcəsini yüksəldir.

Son illər Azərbaycanda istər antiinflyasiya, istərsə də investisiya siyasətlərinin hüquqi təminatı müvafiq qanunvericilik bazası və digər normativ aktlarla daha da möhkəmləndirilmişdir. Eyni zamanda Azərbaycan inkişaf etmiş ölkələr üçün strateji maraq kəsb etdiyinə görə, ölkədə investisiya iqlimini normal hesab etmək olar.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərir ki, investisiya fəallığının yüksəldilməsi baxımından ən mürəkkəb məsələlərdən biri inflyasiyanın idarə edilməsidir. İnflyasiyanın idarə edilməsi kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutur ki, bu da qiymətlərin cüzi artırılmasına, gəlirlərin sabitləşdirilməsinə və uyğunlaşdırılmasına yönəldilir. İnflyasiyanın idarə olunması mexanizmləri onun səviyyə və xarakterindən, iqtisadiyyatın mövcud vəziyyətindən, təsərrüfat sistemlərinin gələcək inkişaf xüsusiyyətlərindən asılı olaraq fərqləndirilir. Buna misal olaraq, qeyd edə bilərik ki, inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə inflyasiya tempini tələb olunan səviyyədə saxlamaq mümkündür. Bu ölkələrdə inflyasiya ilə sərt mübarizə siyasəti aparılmır, ayrı-ayrı ölkələr özünün iqtisadi-maliyyə vəziyyətindən asılı olaraq,

DOI: https://doi.org/10.36719/2024/X

müxtəlif mexanizmlər seçməklə inflyasiya proseslərinin idarə olunması siyasətini həyata keçirirlər.

Apardığım müşahidələrdən belə qənaətə gəlmək olur ki, investisiyaların maliyyələşdirilməsi vasitələrinin təkmilləşdirilməsi təsərrüfat subyektlərinin ixtiyarında mövcud maliyyə ehtiyatlarının artımını diqqət mərkəzində saxlamalı, dövlətin üzərinə qoyulmuş vəzifə və funksiyaların həyata keçirilməsi üçün hakimiyyət orqanlarının fəaliyyətinin möhkəm maliyyə əsaslarının yaradılmasına yardımçı olmalı, dövlətin iqtisadi mövqeyinin və əhalinin sosial müdafiəsini yaxşılaşdırmaq məqsədilə ictimai istehsalın sabitliyini təmin etməlidir.

Dövlət əmlakının özəlləşdirilməsi, neft müqavilələrinin imzalanması, sahibkarlığın inkişafı, müştərək şirkətlərin yaradılması prosesi beynəlxalq yatırım sahiblərinin ölkə iqtisadiyyatına investisiya yerləşdirmək marağını olduqca yüksəltmişdir.

## Ədəbiyyat

1. Abbasov, S.A. (2009). Maliyyə menecmentinin təşkili və təkmilləşdirilməsi problemləri (monoqrafiya). Bakı: Elm və Təhsil nəşriyyatı, 288 s.
2. Shilov, A. (2011). Innovatsionnaya ehkonomika. zh-l “Voprosy EhkonomikI”, №1, s.127-137.
3. Gitman, L.Dzh., Dzhonk, M.D. (1999). Osnovy investirovaniya. Per. s angl. INFRA. Moskva, Delo, 1008 s.
4. Quliyev, T.Ə. (2001). Menecmentin (idarəetmənin) əsasları. Bakı, 518 s.

**Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 31-36**
**Modern Requirements in Science and Education X Theses Collection / 31-36**
**DOI: https://doi.org/10.36719/2024/X**

**Əli Hüseynov**
Bakı Dövlət Universiteti
magistrant
aliwireli@gmail.com

# İNVESTİSİYA FƏALİYYƏTİNİN MALİYYƏ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *investisiya fəaliyyəti, kapital qoyuluşu, investisiya mühiti, aqrar sahə, sərmayə qoyuluşu*

***Keywords:*** *investment activity, capital investment, investment environment, agricultural sector, investment*

Bazar iqtisadiyyatının inkişafı təsərrüfat subyektlərindən bir tərəfdən, dəyişkən iqtisadi mühit şəraitində stabil və dayanıqlı inkişafın təmin olunmasını, digər tərəfdən isə onların istehsal etdikləri məhsulların rəqabət-qabiliyyətinin artırılmasını tələb edir. Bütövlükdə cəmiyyətin və onun ayrı-ayrı təsərrüfat subyektlərinin inkişaf etdirilməsi üçün ağırlıq mərkəzi milli gəlir artımını təmin edən geniş təkrar istehsalın üzərinə düşür. Bu artımı təmin edən əsas vasitələrdən biri investisiya qoyuluşu prosesi və ya investisiyalaşdırma, habelə investisiyaların reallaşdırılması üzrə praktiki fəaliyyətin məcmusu olan investisiya fəaliyyətidir.

Ölkədə investisiya fəaliyyətinin canlandırılması və səmərəli investisiya siyasətinin həyata keçirilməsində dövlətin xüsusi rolu vardır. İqtisadiyyatın transformasiyası dövründə bu xüsusilə zəruridir. Yerli istehsalın inkişafına investorları cəlb etmək üçün Azərbaycan hökumətinin bu sahədə fəaliyyətinin prioritet istiqamətlərindən biri sabit investisiya qanunvericiliyi bazasının formalaşdırılması olmuşdur. Dövlətin bu məsələyə diqqətlə yanaşması nəticəsində ölkədə investisiya münasibətlə-

DOI: https://doi.org/10.36719/2024/X

rinin inkişafı və tənzimlənməsinin daha səmərəli rejimini formalaşdırmağa imkan verən mükəmməl qanunvericilik bazası və onun çevik və işlək mexanizmi hazırlanmışdır. Bununla yanaşı, əlverişli investisiya mühitinin formalaşdırılması məqsədilə infrastrukturun yenidən qurulması, sosial mühitin sağlamlaşdırılması, vergi və gömrük sisteminin optimallaşdırılması, milli valyutanın sabitliyinə nail olunması da əsas fəaliyyət istiqamətləri kimi seçilmişdir. Hökumətin bu sahədəki siyasəti həm kapitalın dəyərinə və daxilolma mənbələrinə, həm də onun yerləşdirilməsi həyata keçirilən bazara əhəmiyyətli təsir göstərmişdir.

Maliyyə ilə bağlı problemlər bu gün, demək olar ki, hər birimizi düşündürən ən vacib məsələlərdən biridir. Çünki, mövcud durumda maliyyə sferasında baş verən proseslər bizim hər birimizin şəxsi rifahı ilə qırılmaz şəkildə bağlıdır. Mənfəət və vergilərin həcmi, sosial sığorta və təqaüdlərə ayırmalar, səhm və istiqrazların qiyməti, istehsal və sosial sahələrə vəsaitlərin investisiya olunması formaları kimi məsələlər bu gün nəinki hökumət dairələri sahəsində müzakirə olunur, onlar, habelə bizim hər birimizi dərindən düşünməyə vadar edir. Hər bir iqtisadi sistemin son hədəfi cəmiyyətin və ayrı-ayrı fərdlərin tələbatlarının qarşılanmasından ibarətdir.

Respublikanın investisiya mühiti həmin ölkədə sahibkarlıq infrastrukturunun keyfiyyəti, investisiyaların səmərəliliyi və əsaslı vəsait qoyuluşu ilə bağlı mümkün risklərin dərəcəsini müəyyənləşdirən siyasi, sosial-mədəni, maliyyə-iqtisadi və hüquqi şəraitin məcmusu ilə səciyyələnir. Əlverişli investisiya mühitini şərtləndirən və investisiya axınına səbəb olan əsas amillərə daxili bazarın yüksək potensialı, stabil vergi sistemi, yüksək mənfəət norması, istehsal resurslarının ucuzluğu, səmərəli dövlət köməyi sistemi aiddir (Ataşov, Novruzov, İbrahimov, 2014: 648).

DOI: https://doi.org/10.36719/2024/X

Uzunmüddətli gələcəkdə təsərrüfat subyektlərinin effektiv fəaliyyət göstərməsi, strateji inkişaf tempinin təmini və rəqabət qabiliyyətinin artırılması əhəmiyyətli tərzdə onun investisiya fəallığı və investisiya fəaliyyətinin diapazonu ilə müəyyənləşir. Təsərrüfat subyektlərinin investisiya fəaliyyətinin reallaşması ilə bağlı kompleks məsələlərin çözülməsi investisiya siyasətinin əsaslandırılması, onun daha düzgün effektiv istiqamətləri və formalarının seçilməsi, real maliyyə investisiyasının məqsədyönlü portfelinin işlənib hazırlanması sahəsində effektiv idarəetmə qərarlarının qəbulunu zəruriləşdirir (Abasov, 2009: 288).

İnvestisiya menecmenti sahəsində çoxlarımıza tanış olan amerika alimləri L.C.Qitman və M.D.Conk yazırlar ki, investisiya strategiyasının işlənib hazırlanması üçün investorlar vergi qanunvericiliyinin tələbləri nəzərə alınmaqla investisiya məqsədləri və proqramlarını, likvidliyə və pensiya təminatına tələbləri müəyyənləşdirməlidirlər. Onlar təsərrüfat subyektlərinin investisiya fəaliyyətinin strateji hədəflərini investorun həll etməyə can atdığı maliyyə vəzifələri kimi dəyərləndirir və investisiya məqsədlərinin geniş yayılmış növlərinə aid edirlər: cari gəlirin artırılması; gələcək iri məqsədlər üçün vəsaitlərin yığılması; vəsaitlərin pensiya fonduna yığılması; gəlirin vergitutmadan müdafiəsi (Gitman, Dzhonk, 1999: 1008).

Tanınmış professor T.Ə.Quliyevin təbirincə, ölkəmizdə investisiyanın idarə edilməsi yalnız ayrı-ayrı normalar və təminatlarla məhdudlaşmamalı, konseptual əsaslarla həyata keçirilməlidir. Başqa sözlə, bütün başqa ölkələrdə olduğu kimi, Azərbaycanın da "... həqiqi milli investisiya menecmenti formalaşmalıdır..." və hamı "... sistemli qaydada belə bir menecmentin işlək olmasını təmin etməlidir" (Quliyev, 2001: 518).

Ölkədə investisiya fəaliyyətinin canlandırılması və səmərəli investisiya siyasətinin həyata keçirilməsində bilavasitə dövlətin

DOI: https://doi.org/10.36719/2024/X

rolu danılmaz hesab edilir. İqtisadiyyatın transformasiyası dövründə bu fakt xüsusilə zəruridir. Yerli istehsalın inkişafına investorları cəlb etmək hədəfi ilə Azərbaycan hökumətinin bu sahədə fəaliyyətinin prioritet sahələrindən biri sabit investisiya qanunvericiliyi bazasının formalaşdırılması hesab edilir. Dövlətin bu məsələyə diqqətlə yanaşmasının yekunu olaraq ölkədə investisiya münasibətlərinin inkişafı və tənzimlənməsinin daha mütərəqqi rejimini formalaşdırmağa imkan verən səmərəli qanunvericilik bazası və onun çevik və işlək mexanizmi işlənib hazırlanmışdır.

İnvestisiya-maliyyə resurslarının cəlb edilməsi prosesində müxtəlif stimullaşdırıcı maliyyə, büdcə-vergi mexanizmləri və ölkənin maliyyə siyasətinin əsasını təşkil edən əlverişli investisiya mühiti və "investisiyaların optimallaşdırılması proqramları"nın işlənib hazırlanması dövlətin əhəmiyyət kəsb edən stimulyatoru kimi ölkənin iqtisadi artımında geniş istifadə edilir. Ölkə iqtisadiyyatına xarici kapitalın cəlbinin stimullaşdırılmasında büdcə-vergi mexanizminin rolunun qiymətləndirilməsi məhz qurulan vergi siyasətinin təşkilindən birbaşa asılıdır. Respublikamızda həyata keçirilən büdcə-vergi siyasəti vergi dərəcələrinin nisbətən aşağı salınması və vergi güzəştlərinin tədqimi hesabına vergitutma bazasının əhatə dairəsinin böyüməsinə, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasına, hüquqi şəxslərlə fərdi sahibkarlar və vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsinə və son yekunda qüvvədə olan iqtisadi potensialın artırılmasına və əhalinin maddi rifahının yüksəldilməsinə yönəldilmiş fəaliyyətdən ibarətdir.

Azərbaycan iqtisadiyyatının real sektoruna lazımi səviyyədə investisiya ilə təmini iqtisadi sabitliyin və onun stabil inkişafından ötrü strateji şərtdir. Bu məsələnin çözülməsi hədəfilə yerli və xarici investorlar üçün müsbət investisiya iqliminin formalaşması zəruridir. Bu isə özlüyündə iqtisadi və maliyyə

DOI: https://doi.org/10.36719/2024/X

nöqteyi-nəzərindən durumun sabitləsdirilməsindən, vergilərin və bütün investisiya risklərinin minimumlaşdırılmsından, investisiya layihələrinin keyfiyyətli işlənməsindən və düzgün qiymətləndirilməsindən, xüsusilə bacarıqlı idarəetmədən bilavasitə asılıdır.

İnvestisiya maliyyələşdirilməsinin təkmilləşdirilməsi üsullarına dövlətin ciddi yanaşmasının vacibliyini vurğulayarkən, onun xarici investisiyaların cəlbi siyasətindən irəli gələn, bu gündən ötrü təxirəsalınmaz bir sıra əsas vəzifələri göstərmək yerinə düşər:

- investorların önəmli hissəsi vergi rejiminin stabilliyi olan əlverişli hüquq və təşkilati durumun yaradılması;
- potensial investorların axtarılması və cəlbi üzrə olan təşkilatların funksiyalarının vahid dövlət orqanında cəmlənməsi;
- dünya təcrübəsindəki səmərəli formalardan geniş istifadə olunması yolu ilə dünya kapital bazarında reklam informasiyasının yaradılması;
- neft ve neft məhsullarının satışından daxil olan valyutanın milli iqtisadiyyatın başqa sahələrinə istiqamətlənməsi təmin olunmalıdır.

Fikrimizcə, ölkəmizdə xarici investisiyaların qeyri-neft sahəsinin inkişafına istiqamətlənməsindən ötrü zəngin təbii-iqtisadi resurs ehtiyatına malik olması vacib üstünlükdür. Bununla bərabər, ölkəmizin müqayisəli üstünlüyə sahib olduğu sahələrin daha da konkretləşdirilməsi və habelə xarici investisiya yatırımlarında bu sahələrə üstünlük verilməsi daha düzgün qərardır. Belə olan tərzdə qeyri-neft sektorunun inkişafına yiyələnməklə bərabər, bəzi sahələrdə yüksək beynəlxalq rəqabət qabiliyyətinə çatmaq münkündür.

DOI: https://doi.org/10.36719/2024/X

## Ədəbiyyat

1. Ataşov, B.X., Novruzov, N.A., İbrahimov, E.A. (2014). Maliyyə nəzəriyyəsi. Dərslik. Bakı, "Kooperasiya" nəşriyyatı, 648 s.
2. Abbasov, S.A. (2009). Maliyyə menecmenti: təşkili və təkmilləşdirilməsi problemləri (monoqrafiya). Bakı, "Elm və Təhsil", 288 s.
3. Gitman, L.Dzh., Dzhonk, M.D. (1999). Osnovy investirovaniya. Per. s angl. INFRA. Moskva, Delo, 1008 s.
4. Quliyev, T.Ə. (2001). Menecmentin (idarəetmənin) əsasları. Bakı, 518 s.

**Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 37-40**
**Modern Requirements in Science and Education X Theses Collection / 37-40**
**DOI: https://doi.org/10.36719/2024/X**

**Tənzilə Qasımova**
ADPU-nun nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kolleci
qasimovatanzila@gmail.com

# İNKLÜZİYA MÜASİR TƏHSİLİN TƏLƏBİDİR

***Açar sözlər****: inklüzivlik, diskriminasiya, inteqrasiya, inklüziv təhsil, əlilliyi olan şəxs, inklüziv cəmiyyət*
***Keywords****: inclusion, discrimination, integration, inclusive education, disabled person, inclusive society*

İnklüziya yaşadığımız dövrdə müasir təhsilin əsas şərtlərindən birinə çevrilmişdir. Ancaq sözün geniş mənasında inklüziya yalnız təhsil sahəsini deyil, həm də ictimai münasibətlərin bütün spektrini əhatə edir: əmək, ünsiyyət, əyləncə. Hər yerdə əlverişli və mehriban mühit yaratmaq, içtimai şüurda maneələri yox etmək üçün diskriminasiya aradan qaldırılmalı, sağlamlıq imkanlarından asılı olmayaraq hər kəsin cəmiyyətə inteqrasiya olunmasına şərait yaradılmalıdır. Əlbəttə ki, bütün sadaladıqlarımızın təmin olunması üçün inklüziv cəmiyyət formalaşdırılmalıdır. Cəmiyyətdə əldə olunan hər bir nailiyyətin təməlində təhsil dayandığı kimi, inklüziv cəmiyyətin əsasında da tam mənasında həyata keçirilən inklüziv təhsil dayanır. Bunun üçün də ilk növbədə inklüziv təhsilin imkanlarının genişlənməsinə, bu sahədə olan çatışmazlıqların aradan qaldırılmasına diqqət yönəltmək lazımdır.

Məlumdur ki, inklüziv təhsil dedikdə milliyyətindən, cinsiyyətindən, dinindən, sosial və fiziki vəziyyətindən asılı olmayaraq hər kəsə bərabər münasibət göstərən, lakin xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün əlverişli şərait yaradan və uşaqlara qarşı hər hansı bir ayrı-seçkiliyə yol verməyən ideologiya nəzərdə tutulur. Respublikamız multikultural və

**DOI: https://doi.org/10.36719/2024/X**

tolerant bir ölkə olduğu üçün nəinki təhsil sahəsində, eləcə də digər sahələrdə də insanlar milli, cinsi, dini diskriminasiya ilə üzləşmirlər. Müəyyən qədər çatışmazlıqlar əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya olunmasında özünü göstərir ki, bu sahədə də qəbul edilmiş qərarlar, həyata keçirilən lahiyələr, problemin həlli yolunda atılan addımlar müsbət nəticə verir. Bu sahədə atılan təqdirəlayiq addımlardan ən əhəmiyyətlisi inklüziv təhsilin tətbiq olunması yönündə aparılan işlərdir. İnklüziv təhsil fərdi keyfiyyətlərindən və ya problemlərindən asılı olmayaraq bütün şagirdlərin təhsil almaq hüququnu əsas götürərək onların cəmiyyətə inteqrasiya olunmasını təmin edib, daha ədalətli cəmiyyətin formalaşmasına zəmin yaradır. Azərbaycan aspektindən yanaşdıqda inklüziv təhsil - sağlamlıq imkanı məhdud olan uşaqların təhsilə çıxışını, bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşaraq hamı üçün təhsilin mövcudluğunu nəzərdə tutan ümumi təhsilin inkişafı prosesidir.

İnklüziya əlilliyi olan şagirdlərə öz güclərinə əminlik yaratmaq cəhdidir ki, bununla da onlar bütün uşaqlar kimi məktəbə getməyə motivasiya olunurlar. Uşaqlar birlikdə təhsil alarkən birlikdə yaşamağı öyrənərək əlilliyi olan və olmayan insanlar arasında sərhədləri aradan qaldırır, əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya olunmasına ilk və ən vacib addımı atmış olurlar. Əlilliyi olan insanların cəmiyyətə inteqrasiya olunmasının çətinliyinin səbəbi onların əlilliklərindən daha çox öz maneələri ilə insanların hüquq və azadlıqlarının reallaşdırılmasına mane olan cəmiyyətin inkişaf vəziyyətidir. Buna görə də inklüziv təhsilin səmərəli təşkilinə cəmiyyətin inklüziya sahəsində maarifləndirilməsi ilə başlamaq lazımdır. Belə ki artıq cəmiyyətdə əlilliklər qüsur deyil, bu və ya digər şəxsin xüsusiyyəti, fərqliliyi kimi qəbul olunsun və əlilliyi olan şəxs cəmiyyətin tam hüquqlu üzvü kimi qəbul olunaraq onun cəmiyyətin bütün sferalarında iştirakına məh-

DOI: https://doi.org/10.36719/2024/X

dudiyyət qoyulmasın. İnklüzivlik - insanların bir-birinə ehtiyacı olduğu zaman fərqliliklərdən mükəmməl bir tamın yaradılmasıdır.

İnklüziv təhsilin tətbiqinə əngəl yaradan bir sıra maneələr də var: məktəblərin fiziki cəhətdən əlçatmazlığı; xüsusi təhsil ehtiyacları olan uşaqların öyrənməyə qadir olmamalarının düşünülməsi; məktəbin pedaqoji kollektivinin əlilliklərin xüsusiyyətləri və onlara yanaşma yolları, sinif strategiyaları haqqında kifayət qədər məlumatının olmaması; sağlamlıq imkanları məhdud olan uşaqların valideynlərinin övladlarının təhsil hüququnu müdafiə etməməsi; əlilliyi olmayan uşaqların valideynlərinin övladının əlilliyi olan uşaqlarla birgə təhsil almasına etiraz etməsi.

Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasını təmin etmək üçün vacib amillərdən biri infrastrukturun onların təlabatlarına uyğunlaşdırılmasıdır. Bu, inklüziv təhsilin səmərəli təşkili üçün vacib şərtlərdəndir.

Diskriminasiyanın aradan qaldırılması, inklüziv cəmiyyətin qurulmasının əsas şərtlərindən biri inklüziyanı tam mənasında anlayan, qəbul edən, bu sahədə səriştəsi olan pedaqoqların hazırlanmasıdır. Bu baxımdan, pedaqoji profilli ali və orta ixtisas təhsili müəssisələrində "İnklüziv təhsil" fənni tədris olunur. Fənnin tədrisi zamanı tələbələrə inklüziv təhsilin əhəmiyyəti, vacibliyi, xüsusi qayğıya ehtiyacı olan uşaqların xüsisiyyətləri, onlara yanaşma yolları, inklüziv təhsil müəlliminin yiyələnməsi vacib olan bir sıra bacarıqlar aşılanır.

## Ədəbiyyat

1. Hüseynova, N.T.(2014). İnklüziv təhsil. Dərs vəsaiti. Bakı.
2. İnklüziv siniflərdə təlimin təşkili (2018). Oxu materialı. Bakı.

3. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. (2020). Xüsusi kitabça. Bakı.
4. Lorema,T., Deppeler, J.,Harvey,D. (2020). İnklüziv təhsil : Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Bakı.
5. Nəzərova,Ş. (2023). İnklüziv təhsilin əsasları. Dərslik. Bakı.

**Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 41-44**
**Modern Requirements in Science and Education X Theses Collection / 41-44**
**DOI: https://doi.org/10.36719/2024/X**

**Yeganə Qasımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
bakalavr
yegane062006@gmail.com

# NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA ƏMƏKÇİ İNSAN SURƏTLƏRİ

***Açar sözlər**: poeziya, epik poeziya, sosial-fəlsəfi lirika, əməkçi insan obrazı, Nizami Gəncəvi*

***Keywords**: poetry, epic poetry, socio-philosophical lyrics, the image of a working man, Nizami Ganjavi*

Orta əsrlər Şərqinin ən böyük şairlərindən biri, farsdilli epik ədəbiyyatın ən böyük romantik şairi, farsdilli epik poeziyaya danışıq dili və realistik stili gətirmiş sənətkar Nizami Gəncəvi 1141-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Nizami dövrü "Qızıl dövr" adlanır. O, "Xəmsə"si ilə nəinki Azərbaycanda, bütün dünyada məşhur böyük şairlərimizdəndir. Şair həyatı boyu müxtəlif mövzularda lirik şeirlər yazmışdır. Nizami özünün sosial-fəlsəfi lirikasında olduğu kimi, "Xəmsə"yə daxil etdiyi əsərlərində də humanist bir mütəfəkkir, vətənpərvər vətəndaş mövqelərindən çıxış edərək, öz zəmanəsinin məruz qaldığı bəlalarında dərin narahatlıq hissləri keçirmiş, cəmiyyəti düçar olduğu müsibətlərdən xilas etməyin yollarını axtarıb-aramışdır. İnsanpərvər mütəfəkkirin bu yolda "... yeganə silahı-həkim bıçağı mənəvi-əxlaqi təkamül təlimi idi". Nizaminin nəzərində əmək insani ləyaqətin başlıca şərtidir, üstün cəhətidir. Dahi şairin bütün yaradıcılığı boyu sevə-sevə təbliğ etdiyi bir ali ideya var - insan cəmiyyətdəki mövqeyindən, maddi vəziyyətindən, qoca və ya cavanlığından asılı olmayaraq əməyi sevməli, özünü vaxtında işə, zəhmətə alışdırmalıdır.

DOI: https://doi.org/10.36719/2024/X

Dahi şair bekarçılığı, tənbəlliyi, ətaləti bütün bəlaların kökü hesab edir.

“Sirlər xəzinəsi” Nizami Gəncəvinin ilk iri həcmli əsəridir. Yaxın və Orta Şərq ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunələrindən biri olan bu əsər şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi idi. Əməyə və əməkçi insana məhəbbət “Sirlər xəzinəsi” poemasında əsərin əsas leytmotivlərindən birini təşkil edir. Nizami dühasının böyüklüyü ondadır ki, mütəfəkkir şair xalqla hökmdar, fərdlə cəmiyyət arasındakı münasibətləri və bu münasibətlərin kölgəli cəhətlərini qorxmadan, cəsarətlə açıb göstərə bilmiş, onların səhvlərini, cinayətlərini üzlərinə deməkdən çəkinməmiş, ibrətləndirmək, qorxutmaq, öyrətmək, xəbərdarlıq etmək yolu ilə onları ədalətə, insanlığa, sülhə istiqamətləndirmişdir. Əsərlərində şahların ədalətini təsvir etmək Nizami üçün az əhəmiyyətlidir, dövrün hökmdarlarını isə xəcalətləndirmək, utandırmaq, həvəsləndirmək, ağıllandırmaq yolu ilə ədalətə yönəltmək, onların ədalətli olmasına nail olmaq şairin zəngin ədəbi irsinin əsas qayələrindən birini təşkil edir. “Sirlər xəzinəsi” əsərindəki bir çox məqalət və hekayələrini də şair onu çox narahat edən, düşündürən problemə həsr etmişdir. “İnsanın mərtəbəsi haqqında” birinci məqaləti, “Ədalət və insafı gözləmək haqqında” ikinci məqaləti, “Padşahın rəiyyətə qayğı göstərməsi haqqında” üçüncü məqaləti, hekayələrdən “Özündən naümid olub bağışlanan padşahın hekayəsi”, “Nuşirəvan və bayquşların söhbəti”, “Sultan Səncər və qarı”, “Zalım padşahla zahidin dastanı”, “Bir şahzadənin hekayəsi” və başqalarını xatırlamaq kifayətdir. Sirlər xəzinəsinin həm məqalətlərində, həm də hekayətlərində müxtəlif əməkçi insan surətləri də vardır. Buna misal olaraq “Kərpickəsən kişinin dastanı”nı göstərmək olar. Burada kişi öz əməyi və zəhməti ilə halal pulunu qazanır. Gördüyü işə görə ona söz deyən gəncə həddini bildirir.

DOI: https://doi.org/10.36719/2024/X

Nizami əsərlərində əmək və əmək adamlarına humanist münasibət şairin yaradıcılığındakı demokratizmin ən parlaq şəkildə təzahürüdür, insan ləyaqətini şərtləndirən aparıcı amillərdən biridir. Şair bu ənənəsinə "Xosrov və Şirin" poemasında da sadiq qalır. Nizaminin yaşadığı XII əsrdə xalq içərisindən çıxan əməkçi insanı şahlardan uca tutmaq, sənətin şahlıqdan üstün olduğunu demək böyük hünər tələb edirdi. Dahi sənətkar məhəbbətlə yaratdığı Fərhad obrazı ilə bu hünərə sahib olduğunu bir daha bəyan etdi:

Fərhad külüng çaldı, daş quma döndü,
Dağlar zərbəsindən bir muma döndü.

İnsanın əlində hər şey acizdir - deyən dahi söz ustadı zəhməti insanlığın şərafəti hesab edir, hər işə can-başla başlamağı, həvəslə başa çatdırmağı tövsiyə edərək insanı əməlindən, yaxşı işdən zövq almağa çağırır. Ancaq zəhmətkeş insanı yaradılmışın əşrəfi hesab edən Nizami Gəncəvi yaratdığı Fərhad obrazı ilə əməkçi insanlara olan sevgisini təsvir edib.

"İskəndərnamə" poemasında da şair "Sokratın nəsihətnaməsi"ndə alimin dili ilə hökmdara zəhmətin faydasından söz açır. Burada deyilir ki, tənbəllik pis bir əməldir, bir işə giriş, bekarlıq həmişə insanı sıxar. "Əməkçi insan surətləri Nizami poemalarının bəzəyi, yaraşığıdır, onun humanist insan konsepsiyasının mahiyyətini, ictimai məzmunu açmaqda mühüm əhəmiyyətə malikdir. Şairin əməkçi obrazları təkcə dünyanı bəzəyən, abadlaşdıran əməyin, zəhmətin təmsilçiləri olaraq qalmır, həm də yüksək əxlaqi-etik məziyyətlərinin daşıyıcıları kimi diqqəti cəlb edirlər. Əməkçi obrazları, bir çox hallarda, "Xəmsə"nin əsas qəhrəmanları sayılan şahlardan, əyanlardan öz gözəl, nəcib, insani keyfiyyətlərinə görə qat-qat yüksəkdə durur, ağılda, zəkada, dəyanət və ləyaqətdə onlar üçün nümunəyə çevrilirlər". Nizami Gəncəvinin əsərlərində əməyə, əkinçi insanlara verilən qiymət elə xalqa, onun milli-mənəvi dəyərlərinə verilən qiymətdir. Dahi şairi əsrlər boyu

**Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 41-44**
**Modern Requirements in Science and Education X Theses Collection / 41-44**
**DOI: https://doi.org/10.36719/2024/X**

xalqa sevdirən, xalqın sevimlisi edən də elə bu ali dəyərlərdir. Nizami yaradıcılığı Azərbaycan ədəbiyyatının qızıl səhifəsi olmaqla bərabər, xalqımızın yaşam tərzinin də poetik güzgüsüdür.

Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 45-49
Modern Requirements in Science and Education X Theses Collection / 45-49
DOI: https://doi.org/10.36719/2024/X

**Yusif Qəribli**
Bakı Biznes Universiteti
magistrant
yqaribov@gmail.com

# İNVESTİSİYA LAYİHƏLƏRİNİN MALİYYƏLƏŞDİRMƏ MƏNBƏLƏRİ

***Açar sözlər:*** *investisiya layihələri, maliyyələşdirmə mənbələri, xüsusi maliyyələşdirmə, maliyyələşdirmə vasitələri, pul vəsaitləri*

***Keywords:*** *investment projects, sources of financing, special financing, financing tools, cash*

Bütün böhranların əsas mənfi təsirləri investisiyalara düşür ki, bu da öz növbəsində ölkənin sosial - iqtisadi həyatının bütün sahələrinə təsir göstərir. Xarici investorlar tərəfindən investisiya qoyuluşları üçün qərarları, bir qayda olaraq, üç amil nəzərə alınmaqla qəbul edilir: ölkənin birbaşa xarici investisiyalarla bağlı sosial-iqtisadi siyasəti; investisiya biznesinin aparılmasını asanlaşdırmaq üçün dövlət tərəfindən görülən tədbirlər və bütövlükdə ölkədəki iqtisadi vəziyyət.

Stabillik şəraitində investorlar kapitalı daha da artırmaq üçün riskə meyillidirlərsə, böhran dövründə əsas vəzifə onu qorumaqdır, bu isə investisiya prosesinin obyektlərinə subyektlərin maliyyə resurslarına əlçatanlığını çətinləşdirir. Daimi və fasiləsiz maliyyələşdirmənin olması, risk səviyyəsinin balansına riayət etmək şərti ilə investisiya layihələrinin uğurla həyata keçirilməsinin açarıdır. Ölkəmizin iqtisadçı alimləri tərəfindən təqdim olunan investisiya prosesi çərçivəsində baş verən investisiya layihələrinin maliyyələşdirmə mənbələrinin təsnifatına müxtəlif yanaşmalar mövcuddur. Həmçinin qeyd etmək lazımdır ki, iqtisadi böhran dövrlərində

DOI: https://doi.org/10.36719/2024/X

dövlət infrastruktur layihələrinin maliyyələşdirilməsini dövlət-özəl tərəfdaşlığı kimi bizneslə qarşılıqlı əlaqə forması vasitəsilə artırmaqla, müxtəlif dövlət maliyyə dəstəyi mexanizmləri ilə müəssisələri hər cür şəkildə stimullaşdırır.

Əsas etibarilə investisiya layihələrinin maliyyələşdirmə mənbələrinin təsnifatları üç qrupla təmsil olunur - xüsusi, borc götürülmüş və cəlb olunmuş vəsaitlər. Bu təsnifat büdcə, özəl, habelə qarışıq maliyyələşdirmə ilə təmsil olunan investisiya proseslərinin maliyyələşdirilməsinin əsas mənbələrini, habelə onları təmsil edən alətləri aydın şəkildə əks etdirir. Xüsusi maliyyələşdirmə, öz növbəsində, öz, borc və hibrid vəsaitlərə bölünür. Qarışıq maliyyələşdirmə isə müxtəlif büdcə və özəl maliyyələşdirmə vasitələrini birləşdirərək formalaşır.

Büdcə maliyyələşdirmə vasitələrinə hüquqi şəxslərə, fərdi sahibkarlara, fiziki şəxslərə subsidiyaların verilməsi, büdcəyə daxil olan vəsaitlərin yenidən bölüşdürülməsi yolu ilə həyata keçirilən və bölgələrə göndərilən büdcələrarası köçürmələr daxildir.

İnvestisiya layihələri ölkənin məqsədli dövlət proqramlarına daxil olduqları təqdirdə birbaşa respublika büdcəsindən və ya regional dövlət proqramlarında iştirak etdikləri təqdirdə regional büdcələrdən maliyyələşdirilə bilər. Ayrıca, investisiya layihələrinin birbaşa büdcə maliyyələşdirilməsi qrantlar (hər hansı bir layihə üçün pulsuz subsidiyalar), məqsədli kreditlər (müəyyən bir faizlə dövlət müəssisələrinə müəyyən müddətə pul vəsaitləri verir), investisiya layihələrində pay iştirakı (səlahiyyətli orqanlar vasitəsilə dövlət bir qayda olaraq, dəyərə proporsional olaraq yatırılan məbləğlə layihənin həmtəsisçisi kimi çıxış edir), habelə zəmanətlərin verilməsi (səlahiyyətli orqanlar vasitəsilə dövlət kommersiya strukturundan kredit alan müəssisə üçün təminatçı rolunu oynayır və kreditin qaytarılmaması halında həmin kommersiya strukturuna olan borcu kompensasiya edir).

DOI: https://doi.org/10.36719/2024/X

Yuxarıda təsvir olunan büdcə maliyyələşdirmə vasitələrində kifayət qədər maneələr mövcuddur, belə ki, heç də bütün layihələr məhdud büdcə vəsaitlərini əldə etməyə iddia edə bilməzlər, hətta səlahiyyətli müvafiq orqanlar tərəfindən baxılması üçün zəruri olan səmərəlilik meyarlarına cavab verə bilsə də.

Xüsusi maliyyələşmə mənbələri kapital maliyyələşdirmə vasitələri, həm hüquqi şəxs, həm də fəaliyyətin təşkili mərhələsində olan fiziki və ya hüquqi şəxs kimi çıxış edə bilən layihə təşkilatçısının şəxsi vəsait mənbələri, habelə qrantlar və xeyriyyə üzvlük haqları ilə təmsil olunur, yəni öz mənbələri müəssisənin və ya layihənin təşkilatçısının borc maliyyələşdirməsindən istifadə etmədən cəlb edə biləcəyi müxtəlif maliyyələşdirmə vasitələri ilə ifadə olunur. Bu formalara aşağıdakılar daxildir:

1.Şəxsi resurslar. Artıq qeyd edildiyi kimi, şəxsi mənbələr layihənin təşəbbüskarının mövcud vasitələri ilə təmsil olunur ki, bu da üçüncü şəxslərin iştirakı olmadan istifadə edilə bilər. Buraya dostlardan, tanışlardan, qohumlardan və s. cəlb edilən pul vəsaitlərini də aid etmək olar. Bu cür maliyyələşdirmə alətinə, xüsusən də investisiya layihəsinin reallaşdırılmasının ilkin mərhələsində daha çox üstünlük verilir.

2.Səhmlərin buraxılması. Bu forma artıq mövcud olan iri layihələr üçün uyğundur. Səhm buraxmaqla şirkətdəki pay müqabilində nağd pul vəsaitləri cəlb edilir. Belə maliyyələşdirmə forması dinamik inkişaf edən iri şirkətlər üçün maraqlıdır, lakin mülkiyyətçilər üçün şirkətin idarə edilməsinə rəhbərliyin itirilməsinə qədər müəyyən risklər daşıyır, həm də nəzərə almaq lazımdır ki, böhran dövründə investorlar yeni və gənc müəssisələrə investisiya qoymağa daha ehtiyatla yanaşırlar.

3. Strateji investorların cəlb edilməsi. Həm fiziki, həm də hüquqi şəxslər strateji investor kimi çıxış edə bilərlər. Bir

DOI: https://doi.org/10.36719/2024/X

qayda olaraq, strateji investor özünün mövcud biznesinə birləşdirmək üçün şirkətdən böyük bir pay alır, lakin strateji investorun maliyyələşdirməsinin cəlb edilməsi investisiya layihəsinin inkişafının ilk mərhələlərində də mümkündür. Ancaq belə bir investorun xüsusilə də böhran dövründə tapmaqda olan çətinlik, bu investisiyalaşdırma formasını o qədər də populyar etmir.

4. İnvestisiya fondları. Hal-hazırda investisiya fondları kifayət qədər geniş yayılmışdır, bunların çoxu müxtəlif investisiya layihələrini maliyyələşdirir, lakin fondun portfelində bu cür layihələrin ümumi faizi azdır, çünki müxtəlif maliyyə alətlərinə qoyulan investisiyalar daha gəlirlidir və investisiyaların geri ödənməsi üçün daha qısa müddətə malikdir. Həmçinin bir çox fondlar ciddi şəkildə müəyyən edilmiş sahə xüsusiyyətlərinə, gəlirlilik tələblərinə və geri ödəmə müddətinə malikdir ki, bu da investisiya layihələrinin maliyyələşdirilməsinin bu vasitəsini daha az arzu olunan edir.

5. Qrantlar və xeyriyyə haqları. Bunların istifadəsi çox məhduddur, çünki dar bir dairə üçün mövcuddur. Bununla yanaşı bu cür maliyyələşdirmə olduqca cəlbedicidir və üçüncü şəxslərdən asılı olmayaraq investisiya layihələrini həyata keçirməyə imkan verir.

Borc maliyyələşdirilməsi alətlərilə təmsil olunan borc maliyyələşdirmə mənbələrinə aşağıdakılar aid edilir:

- Kreditlər. Kapitalın cəlb edilməsinin yüksək qiymətinə və girov təminatı tələbinin olmasına baxmayaraq investisiya layihələrinin maliyyələşdirilməsi üçün ən çox yayılmış vasitələrdən biridir.

- Lizinq. Müxtəlif avadanlıqların alınması ilə əlaqəli investisiya layihələrində tez-tez istifadə olunan maliyyələşdirmə vasitəsidir. Orta və iri şirkətlər üçün rahat vasitədir, lakin yeni başlayanlar üçün demək olar ki, əlçatmazdır.

DOI: https://doi.org/10.36719/2024/X

- İstiqraz emissiyası. Bu maliyyələşdirmə vasitəsi, müəyyən bir faizlə ciddi şəkildə müəyyənləşdirilmiş müddət üçün pul vəsaitləri cəlb etmək imkanı verən böyük şirkətlər üçün də əlçatandır.

Qeyd olunanlardan əlavə, hibrid maliyyələşdirmə mənbələri də mövcuddur ki, onlar həm pay, həm də borc xarakterli alətlərlə təmsil olunur.

DOI: https://doi.org/10.36719/2024/X

**Aytən Həsənova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
doktorant
ayten.hesenova@mail.ru

# QƏBƏLƏ ŞİVƏLƏRİNDƏ ASSİMİLYASİYA HADİSƏSİ

***Açar sözlər:*** *Azərbaycan dili, assimilyasiya, samit, səs, şivə, səkilçi*
***Keywords:*** *Azerbaijan language, assimilation, consonant, sound, accent, suffix*

Assimilyasiya hadisəsi Azərbaycan dilinin qədim dövrlərindən özünü göstərir. Lakin zaman keçdikcə bu hadisə ədəbi dildən çıxmış, canlı danışıq dilində, dialekt və şivələrimizdə qalmışdır; o cümlədən Qəbələ şivələrində də assimilyasiya hadisəsi geniş yayılmışdır (Bayramov, 2016: 186).

**1. İrəli assimilyasiya**

İrəli assimilyasiyada müəyyən bir səs özündən sonra gələn qonşu səsə təsir edir, onu dəyişdirir. Bunun tam və yarımçıq olmaqla iki növü mövcuddur.

Tam irəli assimilyasiya

Tam irəli assimilyasiyada hər hansı bir səs özündən sonrakı səsə təsir edərək onu tamamilə özünə uyğunlaşdırır (çevirir).

Bu növ assimilyasiyanın Qəbələ şivələrində aşağıdakı tiplərinə təsadüf edilir.

nd > nn məs.; mənnən, sənnən, ağzınnan, olannan, dünənnən, bunnan, yaxınnan, unnan və s.

nl > nn məs.: cannı, nişannı, versinnər, tanıyannar və s.

rl > rr məs.: hərrən, birrəş, fırran, yerri, korrux, hərrəmə, varrı, yerri, girrə və s.

dl > dd məs.: yaddar, daddı, savaddı və s. (Rüstəmov, 1961: 91).

DOI: https://doi.org/10.36719/2024/X

Yarımçıq irəli assimilyasiya

Yarımçıq irəli assimilyasiyada müəyyən bir samit sonrakı samiti tamamilə özünə yox, özünə yaxın bir səsə çevirir. Burada assimilyasiya hadisəsi sona çatmır, yarımçıq qalır. Qəbələ şivələrində yarımçıq irəli assimilyasiyanın aşağıdakı tiplərinə təsadüf edilir.

tl > td məs.: atdar, partdamax, sakitdəş  və s.

md > mn məs.: əmimnən, balamnan, qələmnən, üzümnən və s.

sl > sd məs.: hirsdəndim və s.

zl > zd məs.: gözdə, özdəri və s.

şl > şd məs.: bağışda, naxışdı və s. (İslamov, 1968: 62).

**2. Geri assimilyasiya**

Geri assimilyasiya irəli assimilyasiyanın əksidir. Burada müəyyən bir səs özündən əvvəlki səsə təsir edir, onu dəyişdirir. İrəli assimilyasiyada, əsasən, sözdəki son səs şəkilçidəki ilk müvafiq səsin keyfiyyətini müəyyən edirdisə, geri assimilyasiyada əksinə, şəkilçinin başlanğıc səsi sözün (kök və ya əsasın) son səsinin keyfiyyətini müəyyən edir. Beləliklə, sözün kök və ya əsasındakı müəyyən səslərlə şəkilçinin müəyyən səsləri arasında qarşılıqlı şəkildəyişmə hadisəsi yaranır.

Geri assimilyasiyanın da iki növü vardır: 1) tam geri assimilyasiya; 2) yarımçıq geri assimilyasiya

Tam geri  assimilyasiya

Tam geri assimilyasiyada söz daxilində bir səs (şəkilçinin ilk samiti) özündən əvvəlki səsə təsir edərək onu tamamilə özünə çevirir. Qəbələ şivələrində bunun aşağıdakı tiplərinə təsadüf olunur.

rl > ll məs.: alallar, qazıllar, qurudallar və s.

nm > mm məs.: qammaz, inamma, yammır və s.

zs > ss məs.: yazmassan, oxumassan və s.

tç > çç məs.: kəççi, nöbəççi və s. (İslamov, 1968: 63)

Yarımçıq geri assimilyasiya

**Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 50-52**
**Modern Requirements in Science and Education X Theses Collection / 50-52**
**DOI: https://doi.org/10.36719/2024/X**

Qəbələ şivələrində yarımçıq geri assimilyasiyanın aşağıdakı tiplərinə təsadüf edilir.

kb > pb məs.: təpbətəx̀ və s.

nb > mb məs.: Qəmbər, sümbül, təmbəl, şəmbə və s. (İslamov, 1968: 64).

## Ədəbiyyat

1. Bayramov, İ. (2016). Azərbaycan dili şivələrinin fonetikası. Bakı, 251 s.
2. Rüstəmov, R. (1961) Quba dialekti. Bakı, Azərb. SSR EA nəşriyyatı, 283 s.
3. İslamov, M. (1968). Azərbaycan dilinin Nuxa dialekti. Bakı: Azərb. SSR EA nəşriyyatı, 275 s.

Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 53-55
Modern Requirements in Science and Education X Theses Collection / 53-55
DOI: https://doi.org/10.36719/2024/X

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Farida Pashayeva**
Azerbaijan State Agrarian University
dissertation student
feri.rzayeva@gmail.com

## BIODIVERSITY OF THE EARLY SPRING FLORA OF THE LESSER CAUCASUS

***Keywords:*** *biodiversity, climate, species, spring, flora*
***Açar sözlər:*** *biomüxtəliflik, iqlim, növ, yaz, flora*

Conservation of biodiversity is considered a main component of natural resource management. Biodiversity is an all-encompassing concept that describes the extent of ecological diversity. Fragmentation of habitat, reduction of natural resources, deforestation, rapid transition of invasive species to natural flora, and strong climate change are the main driving forces in the destruction of biodiversity. The impact of people on the natural environment and its components increases with the development of civilization. Today, human influence on the global environment has grown to such an extent that it already rivals some other major forces of nature in terms of the magnitude of their impact on the functioning of the Earth system. Today's cultural landscape is the result of millennia of human impact on natural ecosystems, especially the purposeful creation of landscapes for agricultural production.

International organizations don't spare their efforts in preventing such impacts on nature. The Convention on

DOI: https://doi.org/10.36719/2024/X

Biological Diversity was adopted by the United Nations in 1992. In the Republic of Azerbaijan, which joined this Convention in 2000, continuous measures are being taken in this direction. As a continuation of these works, the 2017-2020 National Strategy for the Protection and Sustainable Use of Biological Diversity was approved in the Republic of Azerbaijan by order of the President of the Republic of Azerbaijan. The issue of protection of rare, endemic, useful plant species in the flora of Azerbaijan takes the main place in the action plan included in the strategy.

The number of rare species included in the third edition of the Red Book of the Republic of Azerbaijan has increased to 460 (Red Book of the Republic of Azerbaijan, 2023). However, in the 2nd edition published 10 years ago, this number was 300 (Red Book of the Republic of Azerbaijan. Rare and Endangered Species of Plants and Mushrooms, 2013). This difference in numbers is an indication of the fact that the condition of the flora is getting more and more dangerous every year. The reason for this is the day-by-day increase of industry and infrastructure, climate and anthropogenic influences. If so, botanists and ecologists have a lot of work ahead of them.

For this reason, it is extremely important to study the flora and vegetation type of a specific area, to discover the rare and endemic species that spread there, and to study their protection measures, and it occupies an important place in the steps taken in the direction of biodiversity protection. As a result of anthropogenic impact, global climate change, concentration of gases in the atmosphere, extreme temperature rise, increase in rainfall and other effects, conducting research in accordance with environmental conditions is extremely important for the preservation, protection and sustainable use of the gene pool.

DOI: https://doi.org/10.36719/2024/X

As the most reliable and responsible member of our modern era, the Republic of Azerbaijan contributes to global problems caused by climate change. The Nakhchivan Autonomous Republic and the freed Karabakh, as well as the Eastern Zangezur district, have been declared green energy zones. According to the ordinance signed by Mr. President Ilham Aliyev on December 25, 2023, 2024 was declared the “Year of Solidarity for the Green World”.

It is for this purpose that the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, signed another ordinance on holding the 29th session of the Conference of the Parties (COP 29) of the United Nations Framework Convention on Climate Change on January 13, 2024 in Azerbaijan to assess the progress in the fight against climate change.

The 2024 “Year of Solidarity for the Green World” and the holding of COP 29 in Azerbaijan are a clear example of prevention of climate change and environmental protection of our country at the national, regional and global levels.

**Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 56-58**
**Modern Requirements in Science and Education X Theses Collection / 56-58**
**DOI: https://doi.org/10.36719/2024/X**

**Elnur Abdullayev**
Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutu
doktorant
elnur.a@emaagro.com
**Elnarə Əhmədova**
Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutunun
Abşeron Təcrübə Stansiyası
biologiya elmləri üzrə fəlsəfə doktoru
elnara_mba@yahoo.de

# BİTKİDƏ VİRUS MƏNŞƏLİ XƏSTƏLİKLƏRİN İDENTİFİKASİYASINDA *DAS-ELISA* TEST ÜSULUNUN TƏDQİQİNİN ÜSTÜNLÜKLƏRİ

***Açar sözlər:*** *virus, bitki, DAS-ELISA test, innovativ texnologiya, immunosorbent analizi*

***Keywords:*** *virus, plant, DAS-ELISA test, innovative technology, immunosorbent analysis*

Bitki patogenlərinin diaqnostikasında xəstəliklərə qarşı mübarizə tədbirlərinin ən vacib aspektlərindən və uğurlu kənd təsərrüfatının əsas komponentlərindən biri biotik xəstəlik törədən agentlərin düzgün müəyyən edilməsidir. İmmunoloji üsullara əsaslanan ELISA, ənənəvi diaqnostika və PCR əsaslı üsullarla müqayisədə əhəmiyyətli üstünlüklərə malikdir. Ən son innovativ texnologiyaların və qabaqcıl istehsal üsullarının tətbiqi ilə yüksək sınaq performans xüsusiyyətlərinə malik bitki patogenlərinin aşkarlanması üçün geniş spektrli ELISA metodu vasitəsilə dəqiq, sürətli, sadə və yüksək keyfiyyətli nəticələr əldə olunur.

ELISA test üsulu, bitkilərdə virus zülalları ilə əlaqəli antikorlardan istifadəsi ilə onları təyin etməyə imkan verən seroloji üsuldur. ELISA “fermentlə əlaqəli immunosorbent

DOI: https://doi.org/10.36719/2024/X

analizi" deməkdir. 1971-ci ildə İsveçin Stokholm Universitetində Peter Perlmann və Eva Engvall və Hollandiyada Anton Şuurs və Bauke van Veemen EIA/ELISA test üsulu ilə tədqiqatlara başlamışdılar. Bitki virusologiyasında ilk dəfə 1977-ci ildə istifadə edilmişdir (Clark, Adams, 1977). 2012-ci ildə nanohissəciklərdən xromogen kimi istifadə edilən ultrahəssas, ferment əsaslı ELISA testi vasitəsilə attoqramların aşkarlanmasında istifadə olunmuşdur. Müsbət nəticələr üçün mavi rəng, mənfi nəticələr üçün isə qırmızı rənglər müşahidə olunurdu. Qeyd edək ki, bu aşkarlama faktiki konsentrasiyanı deyil, yalnız analitin mövcudluğunu və ya olmamasını təsdiq edə bilirdi.

Bu üsulda xüsusi plastik materialdan hazırlanmış 96 oyuqlu ELISA lövhələrindən istifadə olunur. İlk mərhələdə ELISA lövhələrinin oyuqları virusa xas anticisimlərlə örtülür və anticismin lövhənin səthinə yapışması təmin edilir. Bunun üçün virusla yoluxmuş bitki nümunələri götürülür. Əgər götürülmüş nümunədə virus varsa, zülal quruluşu ilə antikora bağlanır. Növbəti mərhələdə virusa xas fermentlə işarələnmiş antikor yerləşdirilir. Sonda isə fermentə uyğun substrat əlavə edilir. Analiz zamanı sarı rəngin formalaşması virus zülalının antikorla bağlandığını, yəni virusun nümunədə olduğunu göstərir. Testin nəticələrinə əsasən, müəyyən dalğa uzunluğunda (405 nm) rəngli oyuqların işıq udma qabiliyyəti ölçülür. Müqayisə məqsədilə testə virus-neqativ və virus-pozitiv nümunələr də daxil edilir. Neqativ nümunənin udma dəyərindən (A405) ən azı 2 dəfə çox qeydə alınan nümunələr pozitiv hesab olunur (Sokmen, 2021).

Əsas üstünlükləri:

1. Götürülmüş nümunədə çox az miqdarda antigen (10 ng/ml) aşkar etməyə imkan verir.
2. Hər növ bitki materialları (kök, gövdə, toxum, yarpaq və s.) birbaşa sınaqdan keçirilə bilir.

DOI: https://doi.org/10.36719/2024/X

3. Sürətli və praktik innovativ texnikadır.
4. Bir çox nümunənin eyni zamanda sınaqdan keçirilməsi mümkündür.

## Ədəbiyyat

1. Clark, M. F., Adams, A. (1977). Characteristics of the microplate method of enzyme-linked immunosorbent assay for the detection of plant viruses. J. Gen. Virol., 34, pp. 475-483. doi: 10.1099/0022-1317-34-3-475
2. Sokmen, M. (2021). Plant virus diagnosis methods. file:///C:/Users/user/Downloads/B%C4%B0TK%C4%B0%20V%C4%B0R%C3%9CS%20TANI%20Y%C3%96NTEMLER%C4%B0%20(1).pdf

Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 59-61
Modern Requirements in Science and Education X Theses Collection / 59-61
DOI: https://doi.org/10.36719/2024/X

**Fidan Məhərrəmova**
Bakı Dövlət Universiteti
magistrant
fidan.magerram@bk.ru

# *ARTHROBOTRYS* CİNSİNƏ AİD GÖBƏLƏKLƏRİN BƏZİ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *nematod, nematofaq göbələklər, morfo-kultural əlamətlər, arthrobotrys oligospora fres, arthrobotrys cystospora Mecht*

***Keywords:*** *nematodes, nematophagous fungus, morpho-cultural signs, arthrobotrys oligospora Fres, arthrobotrys cystospora Mecht*

Yırtıcı göbələklərin öyrənilməsi sahəsində ilk məlumatlar *Arthrobotrys oligospora fres* göbələyinin inkişafına aid olunan işlərdir. İlk dəfə *A.oligospora* nematofaq göbələk kimi aşkar olunduqdan sonra bu göbələyin müxtəlif substratlarda – bitki çürüntülərində, su hövzələrində dibdə olan lilin içərisində, heyvanların ifrazatında və s. olması da tədqiqatçılar tərəfindən müəyyənləşdirildi (Taghiyev, 2015).

Azərbaycanda yırtıcı göbələklərin geniş miqyasda öyrənilməsi 1960-cı ildən biologiya elmlər doktoru, professor Nisəxanım Mehdiyeva tərəfindən həyata keçirilmişdir. N.Mehdiyevanın bu sahədə tədqiqatları floristik-sistematik, fizioloji-biokimyəvi və karnoloji istiqamətlərdə aparılmışdır. Onun işləri sayəsində Azərbaycan ərazisində 27 növ yırtıcı göbələk aşkar olunmuşdur ki, bunlardan 8 növ elm üçün yeni hesab edilir (Mekhtiyeva, 1969).

Yırtıcı göbələklərlə bağlı bütün bu nəticələr ötən əsrə aid olduğundan, araşdırmaların yenidən aparılması olduqca mühümdir. Nematofaq göbələk torpaqdan F.F.Soprunov meto-

DOI: https://doi.org/10.36719/2024/X

du vasitəsilə ayrılmışdır. Nematod suspenziyası olan steril su saat şüşələrinə tökülmüş, üzərinə istixana və bağ ərazisindən götürülmüş torpaq nümunəsindən əlavə edilmişdir. Şüşələr nəm kamerada, 20-30°C-də 12-20 gün saxlanılmışdır. 8-10 gün ərzində göbələklərdə spor əmələgəlməsi müşahidə olunmuşdur. Göbələklərin təmiz kulturaya keçirilməsi “quru iynə” üsulu ilə həyata keçirilmişdir (Masmaliyev, 2014).

Aparılan tədqiqatın nəticəsində aydın olmuşdur ki, ayrılmış göbələk ştammları morfo-kultural əlamətlərinə görə *Arthrobotrys olygospora Fres.* və *Arthrobotrys cystospora Mecht.* növlərinə aiddir. Ayrılmış göbələk ştammların morfo-kultural xüsusiyyətləri aşağıdakı cədvəldə təqdim olunub (Bakr et al., 2014).

**Cədvəl.**
**Ayrılmış göbələk ştammların morfo-kultural xüsusiyyətləri**

| | **Tutucu apparat** | **Koloniya** | **Konididaşıyıcı və konidilər** |
|---|---|---|---|
| *Arthobotrys oligospora Fres* | yumruvari həlqə və ya onların şəbəkəsi, ölçüləri 14-40 mkm | şaxələnmiş, seyrək pambıqvari, seyrək-keçəvari, miseliləri yaxşı inkişaf etmiş, bozumtul, açıq çəhrayı, zəif şirin qoxulu | Konididaşıyıcıları düz, sadə, başlıqlarında 5-10 konidilər olur. Konidilər armudvari, ikihüceyrəli, proksimal tərəfdə yerləşən arakəsməli, 15-38 x 8-18 mkm |

DOI: https://doi.org/10.36719/2024/X

| | | | |
|---|---|---|---|
| *Arthobotrys cystospora Mecht* | ayrı-ayrı, yumru və ya qeyri-düzgün formalı həlqə və ya onun şəbəkəsi, 19-44 mkm. | zəif xovlu açıq boz çəhrayı, 10-12-ci gündə daha sıx və xovlu, gün işığında rəngi tünd, zəif qoxulu, reversi daha əlvan rəngdə | Konididaşıyıcıları düz, daha sonra əyilmiş olur, konidilər konididaşıyıcının başında tək-tək yerləşir. Konidilər yumurtaşəkilli və proksimal hissəyə yaxın yerləşən arakəsməli,15-39 x 10-17 mkm |

## Ədəbiyyat

1. Taghiyev, M.M. (2015). Nematody, povrezhdayushchiye ovoshchnyye kul'tury i razrobotka mer bor'by protiv nikh v usloviyakh Apsherona. Aftoreferat na soisk. kand. biol. nauk. Gyandzha, s. 24.
2. Mekhtiyeva, N.A. (1969). Nematofagovyye khishchnyye griby: Aftoref.dokt. diss. Baku, 162 s.
3. Masmaliyev, F.A. (2014). Nematofagovyye griby pochvy Pirgulinskogo Gosudarstvennogo Zapovednika. Dis.d.f.p.b., Baku, 140 s.
4. Bakr, R.A., Mahdy, M.E. and Mousa, E.M. (2014). Biological control of root-knot nematode Meloidogyne incognita by Arthrobotrys oligospora. Egyptian journal of crop protection., 9(1), pp. 1-11.

Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 62-65
Modern Requirements in Science and Education X Theses Collection / 62-65
DOI: https://doi.org/10.36719/2024/X

**Hüseyn Kazımzadə**
Azərbaycan Dövlət Aqrar Universiteti
huseyn.kazimzada@adau.edu.az

# *HYPERİCUM PERFORATUM* L. BİTKİSİNİN MÜXTƏLİF DƏRMAN MADDƏLƏRİ İLƏ QARŞILIQLI ƏLAQƏSİ

***Açar sözlər:*** *Hypericum perforatum L., dərman bitkiləri, dərman maddələri, qarşılıqlı əlaqə, əlavə təsir*

***Keywords:*** *Hypericum perforatum L., medicinal plants, medicinal substances, interaction, additional effects*

*Hypericum perforatum* L. (adi dazıotu) bitkisi qədim zamanlardan bəri tibb təcrübəsində istifadə edilən dərman bitkilərindəndir. Dərman xammalı kimi bitkinin çiçəkli yerüstü hissəsindən istifadə edilir. Xammalın tərkibində yüksək bioloji fəallığa malik müxtəlif növ kimyəvi birləşmələr aşkarlanmışdır. Bu bioloji fəal maddə qruplarına nümunə olaraq, naftodiantronları (hiperisin, psevdohiperisin), floroqlüsinol törəmələrini (hiperforin, adhiperforin), flavonoidləri (hiperozid, rutin, kversetin, kempferol), fenol turşularını (qəhvə turşusu, xolorogen turşusu) və s. göstərmək olar (1).

Tibb təcrübəsində geniş istifadə edilən bu bitki ilə bağlı aparılmış farmakoloji və klinik tədqiqatlar zamanı bir çox dərman maddələri ilə qarşılıqlı əlaqədə olması və bəzi əlavə təsirlərin ortaya çıxması müşahidə edilmişdir.

Ədəbiyyat mənbələri nəzərdən keçirilərək *Hypericum perforatum* L. bitkisi ilə qarşılıqlı əlaqədə olan dərman maddələri və müşahidə edilən əlavə təsirlər haqqında məlumatlar əldə edilmişdir. Əldə olunan bəzi məlumatlarla tanış olmaq bitkinin və ondan alınmış preparatların dərman maddələri ilə

**DOI: https://doi.org/10.36719/2024/X**

birgə istifadəsi zamanı yarana biləcək arzuolunmaz effektlərin qarşısının alınmasında həkim və əczaçılara yardımçı olacaqdır.

*Opioid analgetiklər*. Oksikodonla qarşılıqlı təsir nəticəsində CYP3A4 izofermenti induksiya olunur, dərman maddəsinin qanda konsentrasiyası azalır, bununla bağlı olaraq təsir effekti də azalmış olur (Nieminen, Hagelberg və b., 2010).

*Antihistaminlər*. Feksofenadinlə qarşılıqlı təsir zamanı dərmanın yarımparçalanma dövrü və qandakı konsentrasiyası azalır, nəticədə, təsir effektində azalma müşahidə edilir (Wang, Hamman və b., 2002).

*Dəmir preparatları. Hypericum perforatum* L. bitkisi anemiyanın müalicəsində istifadə edilən dəmir preparatları ilə eyni zamanda istifadə edildikdə dəmirin sorulması inhibə edilir. Müalicəvi effekt əldə olunmur.

*Antibiotiklər*. Amoksisilllinlə birlikdə qəbul zamanı dərman maddəsinin təsirində azalma müşahidə edilir (səbəbi məlum deyil).

*Antidepressantlar. H.perforatum* L. bitkisi bəzi antidepressantlarla birgə istifadə zamanı additiv təsir göstərir. Məsələn, fluoksetinlə istifadə zamanı hipertenziya; klomipramin, paroksetin və venlafaksinlə istifadə zamanı serotonin sindromu; moklobemidlə istifadə zamanı halüsinasiyalar müşahidə edilir.

*İmmunosupressantlar. H.perforatum* L. bitkisi siklosporin və takrolimus kimi immunosupressiv dərman preparatlarının təsirini azaldır.

*Antihiperlipidemik preparatlar*. Atorvastatin, pravastatin, rozuvastatin və simvastatin preparatları ilə *H.perforatum* L. bitkisinin istifadəsi zamanı farmokoloji təsirin azalması və LDL xolesterin səviyyəsinin artması müşahidə edilir.

*Miqren əleyhinə preparatlar. H.perforatum* L. bitkisi ilə sumatriptan və zolmitriptan kimi selektiv serotonin ($5HT_1$) aqonistləri olan və miqren əleyhinə təsir effektinə malik

DOI: https://doi.org/10.36719/2024/X

dərman maddələrinin birlikdə istifadəsi zamanı additiv təsir müşahidə edilir. Miokard infarktı baş verə bilər.

*Virus əleyhinə preparatlar*. İndinavir, ritonavir və nevirapin kimi virus əleyhinə dərman maddələri ilə *H.perforatum* L. bitkisinin birlikdə istifadəsi zamanı terapevtik effekt əldə olunmur və ya dərman maddəsinə qarşı rezistentlik müşahidə edilir.

*Antikoaqulyantlar*. Dipiridamol, klopidoqrel və varfarin kimi preparatların antikoaqulyant təsir effektlərində azalma müşahidə edilir.

*QSİƏM ilə birgə istifadə*. İbuprofenlə birlikdə istifadə də heç bir qarşılıqlı təsir müşahidə edilmir. Piroksikamla istifadə zamanı bitkinin fototoksikliyi artır.

*Antihipertenziv preparatlar*. *H.perforatum* L. bitkisi müxtəlif qruplardan olan antihipertenziv maddələrlə birlikdə istifadə edildikdə dərmanların effektində azalma müşahidə edilir. Bu zaman hipertenziya və aritmiya riski artdığından həyat üçün təhlükəlidir.

*Oral antidiabetiklər*. *H.perforatum* L. bitkisi ilə şəkərli diabetin müalicəsində istifadə edilən preparatlar arasında fərqli qarşılıqlı təsirlər müşahidə edilir. Qliklazid – dərmanın təsiri azalır; metformin – qlükoza ilə stimulə edilən insulin reaksiyasının artması; repaqlinid – heç bir təsir müşahidə edilmir; rosiqlitazon – dərmanın təsiri azalır; tolbutamid – additiv təsir, qanda şəkərin səviyyəsində azalma müşahidə edilir (Izzo, 2012).

Nəticə etibarilə deyə bilərik ki, *H.perforatum* L. bitkisinin xammalı və ondan alınmış vasitələr digər kimyəvi dərman maddələri ilə qarşılıqlı təsirdə olur və bir çox preparatın fəallığını azaldır, bu isə müalicənin gedişinə mane olur. İstər *H.perforatum* L., istərsə də digər dərman bitkilərindən istifadə zamanı mütləq həkim və əczaçı ilə məsləhətləşmək lazımdır.

DOI: https://doi.org/10.36719/2024/X

## Ədəbiyyat

1. European Medicines Agency. (2018). Assesment report on *Hypericum perforatum* L., herba, p. 144.
2. Nieminen, T.H., Hagelberg, N.M., Saari, T.I., Neuvonen, M., Laine, K., Neuvonen, P.J., Olkkola, K.T. (2010). St John´s wort greatly reduces the concentrations of oral oxycodone. European Journal of Pain, 14, pp. 854-859.
3. Wang, Z.Q., Hamman, M.A., Huang, S.M., Lesko, L.J., Hall, S.D. (2002). Effect of St John´s wort on the pharmacokinetics of fexofenadine. Clinical Pharmacology Theory, 71, pp. 414-420.
4. Izzo, A.A. (2012). Interactions between herbs and conventional drugs: overview of the clinical data. Medical Principles and Practice, 21, pp. 404-428.

Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 66-69
Modern Requirements in Science and Education X Theses Collection / 66-69
DOI: https://doi.org/10.36719/2024/X

**Yaqub Səmədov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ağcabədi filialı
yaqub. semedov63 @mail-ru
**Ədalət Quliyev**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
quliyevedalet62@ gmail.com

# AQRAR SAHƏDƏ İSTEHLAK BAZARININ FORMALAŞMASI VƏ ONUN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *dövlət, aqrar-sənaye кompleksi, bazar münasibətləri, istehlak, məhsul, qiymət*
***Keywords:*** *state, agrarian-industrial complex, market relations, consumption, product, price*

Respublika iqtisadiyyatının mühüm tərkib hissəsi olan aqrar sahədə bazar iqtisadiyyatı sisteminin qurulmasında və yeni mülkiyyət münasibətlərinin formalaşmasında ilk növbədə 18 fevral 1995-ci ildə "Aqrar sahənin əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" qəbul edilən Qanunların rolunu xüsusi qeyd etmək lazımdır (Quliyev, 2015: 45).

Aqrar-sənaye kompleksi milli iqtisadiyyatın həyati əhəmiyyətə malik vacib tərkib hissəsi kimi kənd təsərrüfatına xidmət edən sahələri, kənd təsərrüfatının özünü, kənd təsərrüfatı məhsullarının istehlakçılara çatdırılması ilə məşğul olan sahələri birləşdirərək ümumilikdə ölkənin tərəqqisində, iqtisadi və ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır (Nəsirov, 2017: 3).

Aqrar sahədə istehlak bazarının formalaşması ərzaq məhsullarının mövcud səviyyəsinə təsir edən səbəblərin düzgün müəyyən edilməsindən və qiymət əmələ gətirən amillərə təsir

**DOI: https://doi.org/10.36719/2024/X**

göstərməsindən də olduqca asılıdır. Ümumiyyətlə, aqrar istehlak bazarında kənd təsərrüfatı və ərzaq məhsullarının qiymətlərinə təsir edən amillərə aşağıdakıları aid etmək olar:

- tələb və təklifin səviyyəsi,
- istehlak olunan məhsulların keyfiyyəti,
- məhsulların daşınma şərtləri,
- bazar infrastrukturlarının mövcud durumu,
- nəqliyyat xərclərinin həcmi,
- ictimai zəruri əmək məsrəfləri və ya məhsul vahidinin maya dəyəri,
- bazarın inhisarlaşma səviyyəsi,
- rəqabət mühiti,
- dövlətin iqtisadi tənzimləmə vasitələri,
- xarici bazarlarda qiymətlərin mövcud durumu (İsmayılov, 2008: 39).

Qeyd etmək lazımdır ki, əksər dünya ölkələrində aqrar istehlak bazarı dövlət tərəfindən deyil, bazar münasibətləri ilə tənzimlənir. “Bazar” anlayışı ilk növbədə iqtisadiyyatda sərbəst ticarət münasibətlərinin formalaşdırılmasını stimullaşdırır. Yəni bazar özü-özünü tənzimləyir. Dövlətin üzərinə düşən vəzifələr sadəcə olaraq yalnız bazarın təşkilidir. Məsələn, dövlət bazarın fəaliyyəti üçün ərazi ayırır, onu işıq, su və yol ilə təmin edir. Sonrakı proseslərə isə dövlət müdaxilə etmir. Həm qiymət, həm keyfiyyət siyasəti, eləcə də digər göstəricilər bazar münasibətləri ilə tənzimlənir (4).

Yuxarıda deyilənlərə onu da əlavə etmək olar ki, istehlak bazarının formalaşmasına aqrar sahəyə məxsus malların daşınması, məhsulların saxlanması, emalı, həmçinin xidmət haqqında informasiya təminatı, məhsulların bölgüsü və satışı və s. sahələrin inkişafı da mühüm təsir göstərir (Şükürova, 2020: 67). Bu da kənd təsərrüfatı məhsullarına olan ehtiyacın daha çox, yerli istehsal hesabına ödənilməsinə şərait yaradır və bu istiqamətdə gələcək fəaliyyətin daha səmərəli və

DOI: https://doi.org/10.36719/2024/X

məqsədyönlü şəkildə təşkilinə marağı artırır. Aqrar sahədə istehlak bazarının bu cür inkişafı digər tərəfdən dövlətin strateji maraqlarına da xidmət edir.

Bir cəhəti də xüsusi qeyd etmək lazımdır ki, müasir şəraitdə **aqrar istehlak bazarının** fəaliyyəti, aqrar istehsalın genişləndirilməsi, habelə ərzaq bazarının səmərəli təşkili sahəsində dövlətin də üzərinə məsul vəzifələr düşür. Xüsusilə bu mərhələdə dövlət, həm kənd təsərrüfatı istehsalının inkişafı üçün zəruri maddi bazanın formalaşdırılması məsələlərinin həllinə bilavasitə təsir edən amil, həm də istehsal olunmuş kənd təsərrüfatı məhsullarının istehlakçılara əlverişli qaydada çatdırılmasının təminatçısı kimi çıxış edir. Bununla yanaşı, bazar infrastrukturunun formalaşdırılması və təkmilləşdirilməsi, bütövlükdə aqrar-sənaye sisteminin inkişaf etdirilməsi də dövlət tərəfindən həyata keçirilir (Məmmədova, 2020: 159). Müasir dövrdə Azərbaycan dövlətinin bu istiqamətindəki təşəbbüslərinin geniş miqyas alması aqrar sahənin inkişafına güclü təkan verməklə yanaşı, həm də beynəlxalq standartlara uyğun ölkə əhalisinin ərzaq məhsulları ilə təmininə əsaslı zəmin yaradır.

Kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının bazarlara çıxış imkanlarının genişləndirilməsi, geniş əhatəli tədbirlərin həyata keçirilməsi Azərbaycanın Strateji Yol Xəritəsi çərçivəsində (6 dekabr 2016-cı ildə təşkil olunan) müəyyən edilmiş prioritet istiqamətlərdən də irəli gəlir (7).

Azərbaycan Respublikasının istehlak bazarında əhalinin keyfiyyətli və təhlükəsiz ərzaq mallarına olan tələbatının daha dolğun və davamlı təmin edilməsi, ölkədə qida və kənd təsərrüfatı məhsullarının istehsal və idxal-ixrac həcminin artması, istehlakçıların sağlamlığının qorunması və hüquqlarının müdafiəsində Qida Təhlükəsizliyi Agentliyinin də (10 fevral 2017-ci ildə yaradılan) rolunu xüsusi qeyd etmək lazımdır ("Azərbaycan" qəzeti, 2024).

DOI: https://doi.org/10.36719/2024/X

Beləliklə, aqrar sahədə istehlak bazarının formalaşması, bu istiqamətdə mühüm təşəbbüslərin həyata keçirilməsi, yerli istehsalın artmasına, milli ərzaq bazarının qorunmasına müsbət təsir göstərməklə yanaşı, ölkə əhalisinin, xüsusən də onun az təminatlı təbəqəsinin sosial rifah halının yaxşılaşdırılmasına da əhəmiyyətli töhfə verə bilər.

## Ədəbiyyat

1. Quliyev, E. (2015). Aqrar iqtisadiyyat (ali məktəblər üşün dərslik). Bakı: “Kooperasiya” nəşriyyatı, 320 s.
2. Nəsirov, Ə. (2017). Aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının təmin edilməsində beynəlxalq nəqliyyat dəhlizlərinin rolunun artırılması. İqt. ü. fəl. dok. elmi dərəcəsi almaq üçün təq. edil. dissertasiyanın Avtoreferatı. Bakı, 24 s.
3. İsmayılov, R. (2008). Milli ərzaq bazarının inkişafında qiymətin rolu. “İqtisadiyyat və audit” jurnalı, № 9(99), s. 38-40. Bakı.
4. Abdullayeva, N. (30 noyabr 2022). Ərzaq bazarında dövlət əli: Qiyməti ucuzlaşdıracaq, yoxsa? https://cebheinfo.az/iqtisadiyyat/erzaq-bazarinda-dovlet-eli-qiymeti-ucuzlasdiracaq-yoxsa.
5. Şükürova, A. (2020). Aqrobiznes məhsullarının reallaşdırılması sistemində struktur dəyişikliklər. Kənd təsərrüfatının iqtisadiyyatı (elmi-praktiki jurnal), № 2(32). s. 67-89. Bakı.
6. Məmmədova, M. (2020). Aqrar sahədə bazar infrastrukturunun inkişaf mexanizmi. Kənd təsərrüfatının iqtisadiyyatı (elmi-praktiki jurnal), № 4(34), s. 158-162.
7. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. https://static.president.az/pdf/38542.pdf.
8. “Azərbaycan” qəzeti. (06 fevral 2024).

**Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 70-71**
**Modern Requirements in Science and Education X Theses Collection / 70-71**
**DOI: https://doi.org/10.36719/2024/X**

**Elnur Abdullayev**
Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutu
doktorant
elnur.a@emaagro.com

# AZƏRBAYCANDA BECƏRİLƏN ALMA BİTKİSİNDƏ *APPLE CHLOROTİC LEAF SPOT TRİCHOVİRUS* (ACLSV) VİRUSUNUN İMMUNOFERMENT (DAS-ELISA TEST) ÜSULU İLƏ TƏYİNİ

***Açar sözlər:*** *alma bitkisi, virus, Apple chlorotic leaf spot trichovirus, simptom, DAS-ELISA test*
***Keywords:*** *apple plant, virus, Apple chlorotic leaf spot trichovirus, symptom, DAS-ELISA test*

Alma bitkisinin müxtəlif göbələk, bakterial və təxminən 43-ə qədər virus və virusa bənzər xəstəlikləri geniş yayılmışdır. Virus xəstəliklərinə qarşı kimyəvi mübarizənin səmərəsizliyi bu xəstəliklərin əhəmiyyətini daha da artırır. Respublikanın daha çox alma istehsal edən Quba-Xaçmaz iqtisadi rayonunda bu bitkinin virus xəstəliklərinin yayılma intensivliyini aydınlaşdırmaq məqsədi ilə həyata keçirilən bu araşdırma zamanı alma xlorotik yarpaq ləkəsi (*Apple chlorotic leaf spot trichovirus*, ACLSV) xəstəliyi immunoferment təhlili (DAS-ELISA test) metodu ilə aşkar edilmişdir. Götürülmüş 42 ədəd bitki nümunəsindən (əsasən yoluxmuş) 32 alma sortunun (76.2 %) yarpaqlarında xlorotik ləkələnmə virusu müşahidə olunmuş, bu nümunələr üçün nəzarət normasının optik sıxlığı nümunənin optik sıxlığından 2 dəfə çox olmuşdur. Xarici simptomlara sahib bitkilərdə (96.2%) (yarpaq damarlarında halqavari xlorotik ləkələr, onların deformasiyası və yarpaq kənarları qıvrılmış formada) və xarici simptomları olmayan (18.75%) bitkilərdə isə virusun yayılması laboratoriya diaqnostikasının

Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 70-71
Modern Requirements in Science and Education X Theses Collection / 70-71
DOI: https://doi.org/10.36719/2024/X

zəruriyyətini təsdiqləyir. Yalnız bir bitkidə DAS-ELISA test nəticəsində virus aşkar olunmamışdır. Qeyd olunan məlumatlar göstərir ki, vizual simptomların və laboratoriya məlumatlarının (96,2%) əhəmiyyətli bir şəkildə üst-üstə düşməsinə baxmayaraq, infeksiyanın etibarlı diaqnozu üçün immunoferment təhlilinin aparılması zəruridir.

**Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 72-74**
**Modern Requirements in Science and Education X Theses Collection / 72-74**
**DOI: https://doi.org/10.36719/2024/X**

**Khatira Ismayilova**
Ministry of Science and Education of the
Republic of Azerbaijan
Acad. Institute of Petrochemical Processes named after
Y.H. Mammadaliyev
xatire19667@gmail.com
**Khasmurad Ismayilzadeh**
Istanbul Gedik University
graduate student
xasmurad2003@gmail.com

# ACADEMICIAN VAHAB ALIYEV`S ROLE IN THE DEVELOPMENT OF CATALYTIC CRACKING PROCESS IN AZERBAIJAN

***Keywords:*** *Oil refining, catalytic cracking process, small-dispersed catalyst, direct flow, two-stace catalytic cracking*
***Açar sözlər:*** *neft emalı, katalitik krekinq prosesi, kiçik dispersdli katalizator, yarım-birbaşa axın, ikipilləli katalitik krekinq prosesi*

The history has presented to Azerbaijan outstanding persons, which names and works became known not only in their native country and in the Soviet Union but also all over the world. One of such persons is a Dr.Sci.Tech., the professor, the winner of the State Award of the USSR and Azerbaijan, the honored worker of a science and techniques, the academician V.S.Aliyev.

His researches made a considerable push into the development of petrochemical and oil-refining industry and the science in Azerbaijan. It became possible and consequently because of the academician Aliyev V.S. in beginning his scientific researches in laboratory imagined technology of

DOI: https://doi.org/10.36719/2024/X

developed processes in industrial scale. If it was not so, the tens technological processes created by it would never find the application in industry.

Aliyev Vahab Safarali oghlu was born in June 20th, 1908 in the big country family in the village Saray of the Baku area in Azerbaijan. Aliyev V.S. has four brothers and two sisters.

When Aliyev V.S. was 17 years old he entered for study in Baku City "RabFak" and simultaneously began his teaching activity at evening school №6. After graduation of "RabFak" in 1929 Aliyev V.S. entered in the Moscow Institute of Oil and Gas named after Gubkin and graduated in with honour in 1934.

In 1934 Aliyev V.S. was graduated from the institute with a specialty of the process engineer and he was directed to the "Azneft" in Baku.

In 1950 Aliyev V.S. defended the dissertation on competition of a PhD (tech.) scientific degree on the theme: "Improvement of schemes Baku craking units and improvement of motor properties of automobile gasoline". The recommendation to defence was given by PhD I.F. Blagovidov.

After defence of the PhD thesis Aliyev V.S. in 1951 passed to Scientific Research Institute of oil refining, where until 1959 he worked as the director. After reorganization of AzNilNP Aliyev V.S. was appointed the deputy director on scientific work of Institute of Petrochemical processes NAS of Azerbaijan from 1959 untill 1962.

In 1989 V.S.Aliyev and M.I.Rustamov was elected as a member (academician) of the Azerbaijan Academy of Sciences. Academician M.I.Rustamov's researches on theory and practical realization of catalytic processes with fine dispersed catalyst were the first in given field and formed the basis of development of the processes for butane dehydrogenation to butylenes, oxidation of o-xylene to phthalic anhydride, progressive technological systems of catalytic

DOI: https://doi.org/10.36719/2024/X

cracking of different petroleum feedstocks. Using his various modifications of reactor systems with upflow through and half-through flow of catalyst, allowed to increase the specific capacity of the reaction apparatus by 8-10 times, to raise considerably the selectivity of catalytic cracking process in camparision with the variant conducting it in systems with "fluidized" bed of catalyst, allowed to create assemblies of large output and made possible the cracking of heavy petroleum feedstock.

The characteristic of V.S.Aliyev's and M.I.Rustamov's work is sense of the new, fresh ideas, originality, high theoretical level practical significance. For the first time in practice he established the principal possibility and developed the technology for production of automobile gasolines AI-93 in the process of catalytic cracking. The scientific foundations were created permitting to forecast the preparation of unleaded gasoline AI-93 by varying the hydrocarbon composition and operating conditions of the process. The process was commercialized in Baku refinery.

The most part of researches of Aliyev V.S. was carried out on the level of inventions to which about 300 certificates, more than 50 foreign patents and over 400 published scientific articles testify.

Academician Aliyev Vahab died in Baku on August, 2$^{nd}$ 1993.

**Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 75-77**
**Modern Requirements in Science and Education X Theses Collection / 75-77**
**DOI: https://doi.org/10.36719/2024/X**

**Hüseyn Kazımzadə**
Azərbaycan Dövlət Aqrar Universiteti
huseyn.kazimzada@adau.edu.az

# PİYLƏNMƏ: SƏBƏBLƏRİ VƏ FƏSADLARI

***Açar sözlər:*** *piylənmə, artıq çəki, bədən kütlə indeksi, pəhriz, fiziki aktivlik*

***Keywords:*** *obesity, overweight, body mass index, diet, physical activity*

Piylənmə orqanizmdə yağların toplanması və bədən kütləsinin normadan artıqlığı ilə müşahidə edilən mübadilə pozğunluğudur. Piylənmə yaşadığımız əsrin geniş yayılmış xəstəliklərindəndir, təkcə ABŞ-da əhalinin 2/3-i bu xəstəlikdən əziyyət çəkir. Statistik göstəricilər nəticəsində piylənmədən əziyyət çəkənlərin sayının hər il 5% artdığı müşahidə edilir.

Piylənmənin başlıca səbəblərinə genetik faktorlar, passiv həyat tərzi, yüksək kalorili və nizamsız qidalanma (həmçinin, “fast food”, qazlı-şəkərli içkilər), spirtli içkilərdən istifadə, gecə yatmazdan əvvəl qida qəbulu və s. göstərilə bilər.

Bundan əlavə stress, depressiya, şəkərli diabet, insulin dirənci, Kuşinq xəstəliyi, cinsiyyət hormonlarının azlığı, yumurtalıqların polikistozu, beynin hipotalamus bölgəsində yerləşən şişlər, tiroid vəzinin fəallığının azalması (hipotiro-idizm), Daun sindromu və s. bir sıra xəstəliklərdə orqanizmdə yağların toplanmasına və piylənməyə səbəb ola bilir.

Müxtəlif xəstəliklər nəticəsində yarandığı kimi, piylənmə özü də bir çox xəstəliklərə səbəb ola bilir. Piylənmə arterial hipertenziya, hiperxolesterinemiya, ateroskleroz, miokard infarktı, qaraciyər piylənməsi, şəkərli diabet, insult, apnoe, bronxial astma, menstruasiya pozğunluqları, erektil disfunksiya, sonsuzluq, aşağı ətraf venalarında varikoz, babasil, öd

**Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 75-77**
**Modern Requirements in Science and Education X Theses Collection / 75-77**
**DOI: https://doi.org/10.36719/2024/X**

kisəsi xəstəlikləri, xərçəng, hamilə qadınlarda erkən doğuş, abort və ya doğuşun çətinləşməsi kimi çoxsaylı fəsadlar törədir.

Ümumiyyətlə, dünyada şəkərli diabet xəstəliyinin 44%-i, ürəyin işemik xəstəliklərinin 23%-i və xəsrçəng xəstəliklərinin 7%-dən 41%-ə qədəri artıq çəki və piylənmə ilə əlaqədardır.

Bəzi dərman maddələrinin (kortizon, antidepressantlar) uzunmüddətli istifadəsi zamanı da piylənmə müşahidə edilir.

Piylənmə həmçinin insan psixologiyasına da mənfi təsir göstərir. Belə ki, piylənmə zamanı bulimiya və anoreksiya kimi qidalanma pozğunluqları, insanların özlərini cəmiyyətdən təcrid etməsi və s. hallara da çox sıx rast gəlinir.

Piylənmə dərəcəsini təyin etmək üçün bədən kütlə indeksi (BKİ) hesablanmalıdır. BKİ-ni hesablamaq üçün insanın bədən kütləsi onun boyunun kavadratına bölünür. Sağlam insanda BKİ 18,5-24,9 aralığında olmalıdır. BKİ 25-29,9 olduqda bu artıq çəki, ≥30 olduqda isə piylənmə hesab edilir. Bədən kütlə indeksi göstəriciləri 1 nömrəli cədvəldə göstərilmişdir (1).

**Cədvəl 1. BKİ göstəriciləri**

| | |
|---|---|
| Bədən kütləsinin az olması | <18,5 |
| Normal bədən kütləsi | 18,5-24,9 |
| Bədən kütləsinin artıqlığı | ≥25,0 |
| Piylənmədən qabaqkı hal | 25,0-29,9 |
| Piylənmə | ≥30 |
| I dərəcəli piylənmə | 30,0-34,9 |
| II dərəcəli piylənmə | 35,0-39,9 |
| III dərəcəli piylənmə | ≥40,0 |

Piylənmə çox geniş yayılmış və göstərdiyi fəsadlara görə insan həyatı üçün risk törədən xəstəliklərdən olub, onun müalicəsi olduqca aktualdır. Piylənmənin müalicəsində ilkin

Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu / 75-77
Modern Requirements in Science and Education X Theses Collection / 75-77
DOI: https://doi.org/10.36719/2024/X

yanaşma qidalanma rejiminə və pəhrizə ciddi əməl edilməsidir. Daha sonra piylənmədən əziyyət çəkən insanların müntəzəm olaraq gündə ən az 30 dəqiqə fiziki aktivliklə məşğul olması lazımdır. Bütün bunlar nəticə verməzsə artıq dərman terapiyası və cərrahi müdaxilə tələb olunur.

## Ədəbiyyat

1. https://saglamliq.isim.az/news/2016/piylenme-haqqinda-10-fakt1

## İÇİNDƏKİLƏR

### HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
### HUMANITIES AND SOCIAL SCIENCES

**Elnur Cəfərov**
Hava yükdaşımalarının səmərəliliyinin yüksəldilməsində rəqabətin rolu . . . . . . . . . . . . . . . . . . . 7
**Teymur Həsənli**
Dövlətin iqtisadiyyata fiskal təsir metodları və formaları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 12
**Yusif Mehtiyev**
Maliyyə-vergi nəzarətinin zəruriliyi və büdcə sisteminin dayanıqlığına təsiri . . . . . . . . . . . . . . . . . . . . 19
**Fidan Ələkbərova**
Müəssisəyə investisiya fəaliyyətinin maliyyə nəticələrinin qiymətləndirilməsi . . . . . . . . . . . . . . . . . . 25
**Əli Hüseynov**
İnvestisiya fəaliyyətinin maliyyə mexanizminin təkmilləşdirilməsi istiqamətləri . . . . . . . . . . . . . . . . . . . 31
**Tənzilə Qasımova**
İnklüziya müasir təhsilin tələbidir . . . . . . . . . . . . . . . . 37
**Yeganə Qasımova**
Nizami Gəncəvinin yaradıcılığında əməkçi insan surətləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 41
**Yusif Qəribli**
İnvestisiya layihələrinin maliyyələşdirmə mənbələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 45
**Aytən Həsənova**
Qəbələ şivələrində assimilyasiya hadisəsi . . . . . . . . . 50

## TƏBİƏT ELMLƏRİ
## NATURAL SCIENCES

**Farida Pashayeva**
Biodiversity of the early spring flora of the Lesser Caucasus . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 53
**Elnur Abdullayev, Elnarə Əhmədova**
Bitkidə virus mənşəli xəstəliklərin identifikasiyasında DAS-ELISA test üsulunun tədqiqinin üstünlükləri . . . 56
**Fidan Məhərrəmova**
Arthrobotrys cinsinə aid göbələklərin bəzi morfoloji xüsusiyyətləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 59
**Hüseyn Kazımzadə**
Hypericum perforatum L. bitkisinin müxtəlif dərman maddələri ilə qarşılıqlı əlaqəsi . . . . . . . . . . . . . . . . . . . 62
**Yaqub Səmədov, Ədalət Quliyev**
Aqrar sahədə istehlak bazarının formalaşması və onun səciyyəvi xüsusiyyətləri . . . . . . . . . . . . . . . . . . . 66
**Elnur Abdullayev**
Azərbaycanda becərilən alma bitkisində Apple chlorotic leaf spot trichovirus (ACLSV) virusunun immunoferment (DAS-ELISA test) üsulu ilə təyini . . 70
**Khatira Ismayilova, Khasmurad Ismayilzadeh**
Academician Vahab Aliyev`s role in the development of catalytic cracking process in Azerbaijan . . . . . . . . . 72
**Hüseyn Kazımzadə**
Piylənmə: səbəbləri və fəsadları . . . . . . . . . . . . . . . . . 75

İmzalandı: 09.08.2024
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 5 ç.v.
Sifariş: 785

www.aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az

